## Müdafiə Nazirliyi təkzib etdi

Ordumuzun atəşi nəticəsində Ermənistan hərbçisinin yaralanması xəbəri yalandır



Noyabrın 17-si saat 11:00-da ordumuzun bölmələri tərəfindən guya atəş açılması və nəticədə qarşı tərəfin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan müdafiə nazirliyinin yaydığı məlumat yalandır.

Bu barədə Müdafiə Nazirliyindən (MN) bildirilib.

"Yayılan məlumatı qəti surətdə təkzib edirik", - qeyd olunub.

## Təqaüdçülər 290 manat alır

Problemlər çoxdur və bunlara da diqqət edilməlidir



**"Manatın məzənnəsinin qorunub saxlanılması, neftin bir barelinin 50 dollardan götürülməsi, inflyasiyanın mümkün qədər qarşısının alınması normal haldır".**

Bunu Milli Məclisdə çıxışı zamanı deputat Vahid Əhmədov deyib. Deputat bildirib ki, neft-qazdan gələn gəlir 53, qeyri-neft sahəsində isə 47 faizdir...

(səh.2)



## Ordumuz cavab tədbirləri görüb

Erməni silahlı birləşmələrinin Ağdam və Xocalıda qanunsuz fəaliyyətlərinin qarşısı alınıb

**Noyabrın 17-si saat 09:55-dən 14:45-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvlərinin Ağdam və Xocalı rayonları ərazilərində döyüş mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis tədbirləri icra etmələri Ordumuzun bölmələri tərəfindən müşahidə edilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə bildirilib ki, bu kimi fəaliyyətlər Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladıqları üçtərəfli bəyanatın tələblərinin kobud şəkildə pozulmasıdır.

"Həyata keçirilən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə Ordumuzun bölmələri tərəfindən zəruri tədbirlər görülüb", - qeyd edilib.


№ 210 (5731), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 noyabr 2022-ci il (cümə)




## Vladimir Putin Prezident İlham Əliyevə zəng edib

Dövlət başçıları iqtisadi-ticari və enerji sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər

**Noyabrın 17-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Telefon danışığı əsnasında dövlət başçıları iqtisadi-ticari və enerji sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# "Bizə Ermənistanın aydın mövqeyi lazımdır"

Prezident İlham Əliyev: "Onlar erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər, bu, olmayacaq"



**"Avropa İttifaqı ilə saziş üzərində iş uğurla, lakin ləng gedir, prosesin sürətləndirilməsi üçün təlimat vermişəm".**

Bunu Prezident İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, Avropa İttifaqına üzv olan ölkələrlə ikitərəfli əsasda fəal iş görülüb:

"Üzv ölkələrin doqquzu ilə biz strateji tərəfdaşlıq haqqında bəyanat, yaxud saziş imzalayıb və ya qəbul etmişik. Bu isə üzv dövlətlərin üçdəbiridir. Hesab edirəm ki, Azərbaycan Şərq Tərəfdaşlığı qrupuna daxil olan nadir ölkədir ki, öz strateji hədəfinə həqiqətən nail olub.

(səh.2)

## Paşinyan yaxşı anlayır ki, Bakı təklifləri qəbul etməyəcək

Tofiq Zülfüqarov: "Ermənistan rəhbərliyi sülhə yaxın gəlmir, regiona kənar qüvvələr gətirməyə çalışır"



**"Sərhədlərin delimitasiyası prosesi bir neçə il çəkə bilər. Bu səbəbdən Ermənistan tərəfi Azərbaycanla sülh müqaviləsi əvəzinə çərçivə sazişi imzalamağı nəzərdən keçirir".**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı deyib. Paşinyanın sözlərinə görə, sülh müqaviləsinin imzalanması zamanı sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başa çatması real görünmür.

(səh.3)

## "Havadan barıt qoxusu gəlir"

Siyavuş Novruzov: "Təklif edirəm ki, büdcədə təhlükəsizlik, müdafiə məsələləri geniş əhatə olunsun"



© Trend News Agency

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasda hökumət nümayəndələrinin iştirakı ilə 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib.**

Deputatlar büdcə müzakirəsi zamanı çoxsaylı məsələlərdən danışıblar, uğurlarla yanaşı, problemləri də gündəmə gətiriblər. Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib ki, səhiyyə xərclərində əhəmiyyətli artım nəzərdə tutulur. Deputat bildirib ki, icbari tibbi sığortadan əhalinin məmnunluğu artır...

(səh.4)



## Millət vəkilləri təkliflər səsləndirib

Güney azərbaycanlıların Azərbaycanda təhsil almasına şərait yaradılmalıdır

**Deputatlar güney azərbaycanlıların ali məktəblərdə təhsil almasına şərait yaradılmasını təklif ediblər.**

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, İran ərazisində yaşayan soydaşlarımız bizə müraciət edərək bildirirlər ki, öz ana dilində təhsil almaq hüquqlarından məhrumdurlar:

"Təklif edirəm ki, onlara müəyyən güzəştlər edilsin və Azərbaycanda təhsil alacaqları təqdirdə onlara xarici tələbələr kimi baxılmasın".

(səh.4)

## Dərman vasitələri ilə bağlı dövlət proqramı hazırlanır

Bu proqram qəbul ediləndən sonra dərman vasitələri ilə bağlı problem aradan qalxacaq



**Azərbaycanda dərman vasitələri ilə bağlı xüsusi dövlət proqramı hazırlanır.**

Bunu Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin plenar iclasında büdcə müzakirələri zamanı deyib. Ə.Əmiraslanov bildirib ki, bu gün əhali arasında dərman vasitələri ilə bağlı xeyli narazılıq var: "Bunun da həllinə nail olmaq lazımdır.

(səh.7)

## Gələn il pensiyalar 14 faiz artacaq



**Orta aylıq əməkhaqqının cari ilin sonuna 838 manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da gələn ildə pensiyaların orta hesabla 14,5% artırılmasını təmin etməyə imkan yaradacaqdır.**

Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlament noyabrın 17-də keçirilən plenar iclasında deyib.

(səh.2)



## Regionda vəziyyət getdikcə gərginləşir

İranın əməllərini qonşu dövlətlər izləməlidir

(səh.5)



## "Vətən anlayışı bizləri daha da gücləndirəcək"

Məhsa Mehdili: "İran Azərbaycanın yüksəlməsinin cəzasını güney azərbaycanlılara kəsir"

(səh.5)

# “Bizə Ermənistanın aydın mövqeyi lazımdır"

## Prezident İlham Əliyev: “Onlar erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər, bu, olmayacaq”



“Əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir”

**”Avropa İttifaqı ilə saziş üzərində iş uğurla, lakin ləng gedir, prosesin sürətləndirilməsi üçün təlimat vermişəm”. Bunu Prezident İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, Avropa İttifaqına üzv olan dövlətlərlə ikitərəfli əsasda fəal iş görülüb:**

”Üzv ölkələrin doqquzu ilə biz strateji tərəfdaşlıq haqqında bəyanat, yaxud saziş imzalayıb və ya qəbul etmişik. Bu isə üzv dövlətlərin üçdəbiridir. Hesab edirəm ki, Azərbaycan Şərq Tərəfdaşlığı qrupuna daxil olan nadir ölkədir ki, öz strateji hədəfinə həqiqətən nail olub. Beləliklə, bu, yaxşı platformadır və biz onu Avropa İttifaqı ilə sazişimizin müzakirəsi üçün təməl hesab edirik. Saziş üzərində iş uğurla, lakin ləng gedir. Uğurla gedir ona görə ki, sazişin bəndlərinin 90 faizi razılaşdırılıb. Ləng gedir ona görə ki, orada hər iki tərəfdən siyasi iradə tələb edən və necə deyərlər, ilişib qaldığımız məsələlər var. Azərbaycanda bununla bağlı müəyyən narahatlıqlar var, çünki bizim imzaladığımız və ya imzalamağı planlaşdırdığımız hər hansı saziş bizə və tərəfdaşlarımıza əlavə fayda verməlidir. Biz orta və ya uzunmüddətli perspektivdə iqtisadi çətinliklər yarada biləcək hər hansı bir sənədi imzalaya bilmərik. Yəni ləngiməyə səbəb olan bəndlər iqtisadiyyat, ticarət və bəzi digərləridir. Mən prosesin sürətləndirilməsi ilə bağlı nümayəndə heyətimizə artıq təlimat vermişəm və hesab edirəm ki, sazişin yekunlaşdırılması üçün fürsət var. Zənnimcə bu, bizim əməkdaşlığımız üçün daha bir mühüm nailiyyət olacaqdır. Biz əlbəttə ki, enerji inkişafı və enerjinin şaxələndirilməsi layihələri haqqında da danışacağıq və müzakirələrin nədən ibarət olduğunu biləcəyik”.

**“Mən bu gün Ermənistanın sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edirəm”**

Ölkə rəhbəri qeyd edib ki, Ermənistanın sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edir: ”Siz Ermənistana səfərinizi və orada Ermənistan rəhbərliyindən sülh mesajı aldığınızı qeyd etdiniz. Biz işğalın davam etdiyi bütün illər ərzində bu mesajları eşitmişik. Lakin onlar səmimi deyildi. Biz də sülh arzulayırdıq, lakin torpaqlarımızı geri istəyirdik. Onlar isə torpaqları geri qaytarmadan sülh istəyirdilər. Fərq bunda idi. Beləliklə, biz münaqişəni güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə həll etməli olduq. Mən bu gün onların sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edirəm. Çünki onlar həqiqətən sülh arzulayırdılarsa, bizim təklifimizə cavab verərdilər. Müharibə başa çatdıqdan dərhal sonra sülh sazişi üzərində danışıqlara başlamağı təklif edən biz olmuşuq. Bu dünya tarixində nadir hallardandır ki, ərazisi uzun illərdir işğal altında olan, ədaləti güc yolu ilə bərpa edən, düşməni məğlub edərək torpağından qovan ölkə sülh təklif etsin. Biz Ermənistan tərəfindən ərazilərimizin dağıdılması və viran qoyulması, azərbaycanlıların əzab-əziyyət çəkməsinə baxmayaraq, sülh təklif etdik”.

**“Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır”**

Prezident qeyd edib ki, bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır: ”Biz məlum beş prinsipdən ibarət sülh və bir növ çərçivəni təklif etdik. Məhz biz delimitasiya komissiyasını yaratmağı təklif etdik. Məhz biz münasibətlərin normallaşdırılması üçün əsasları müəyyən etməyə çalışdıq. Ermənistan bu prosesin ilkin mərhələsində çox tərəddüd edirdi. İndi isə onlar sülh haqqında danışırlar, lakin biz onların anlamında sülhün nə olduğunu anlamırıq. Bununla belə, bizim mövqe çox aydındır. Bu, dəfələrlə ictimaiyyət qarşısında, o cümlədən mənim Avropa Komissiyasının rəhbərliyi və normallaşma prosesində iştirak etmiş, hazırda iştirak edən ölkələrin, yəni Birləşmiş Ştatların və Rusiyanın liderləri ilə kontaktlarım zamanı qeyd olunub. Bizim iki yolumuz olmalıdır: Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması prosesi və həmçinin hüquqlar və təhlükəsizlik baxımından Azərbaycanda, Qarabağda erməni azlığına aid məsələlər. Elə dünən dövlət katibi Blinken ilə mənim telefon danışığım olub. Biz bu haqda bir daha danışdıq. Biz tam anlayırıq ki, iki yol olmalıdır və onlar bir-birinə qarışmalı deyil. Lakin Ermənistandan gələn bəyanatlar çox ziddiyyətlidir. Onlar bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altına imza da atırlar. Bu, bütün ərazimizin suverenliyi deməkdir. Hamımız suverenliyin nə olduğunu anlayırıq. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik. Buna görə bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır”.

**“Əgər Ermənistan sülh istəyirsə, onda o, çox təhlükəli ritorikadan əl çəkməlidir”**

*Azərbaycan Prezidenti bildirib ki, əgər Ermənistan sülh istəyirsə, onda o, çox təhlükəli ritorikadan əl çəkməlidir:* ”Bir sözlə, bir daha deyirəm ki, biz onların əməllərini sözlərlə deyil, addımlarla ölçməliyik. Çünki onların dedikləri sözlər etdikləri əməllər və ya planları ilə ziddiyyət təşkil edir. Bununla bağlı, bilmirəm, siz Ermənistan rəhbərliyindən birbaşa cavab almısınız, yoxsa yox. Mən şübhə edirəm, çünki onlar bu ikimənalılığı saxlamaq istəyir və bu isə heç də fayda gətirmir”.

**“Biz Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma...”**

**Prezident deyib ki, biz Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi Vardanyan kimi insanlarla yox, o, çox aydın gündəliklə göndərilib:** ”Bu yaxınlarda Ermənistan rəsmiləri Azərbaycanı İŞİD və ”Əl-Qaidə” ilə müqayisə etmişdilər. Fikrimcə, bu, çox təhlükəli ritorikadır. Birincisi, onların özləri İŞİD və ”Əl-Qaidə” kimi hərəkət etmişdilər. Avropa İttifaqının səfirləri azad edilmiş ərazilərə baş çəkmişdilər. Ermənilər tarixi və dini irsə İŞİD və ”Əl-Qaidə”nin eynilə etdiyi kimi yanaşmışdılar. Biz yox. Onlar. Onlar terror aktları törədiblər. Onlar soyqırımı törədiblər. Onlar bizim məscidləri uçurublar. Biz yox. Lakin cənab Paşinyan bu sözləri istifadə edərkən bilməlidir ki, biz bunu eşidirik. O, bizim reaksiyamızın necə olacağı barədə düşünməlidir. Bir sözlə, məsələ asan deyil. Hesab edirəm, vacib odur ki, Ermənistan əslində istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır”.

**İsmayıl**

# Geriyə yol yoxdur

## Azərbaycan İranla öz dilində danışmağa başlayıb



**“Bu gün Azərbaycan və İran münasibətlərində ciddi çatlar yaranıb. Məhz cənub qonşumuz çatları daha da dərinləşdirir.**

Uzun illərdir ki, Azərbaycana qarşı düşmən mövqedən çıxış edən rəsmi Tehran Azərbaycanın müstəqilliyini, Qarabağın geri qayıtmasını həzm edə bilmir”.

**Bunu ”Şərq”ə siyasi şərhçi Rusif Məmmədsoy son günlər gərginləşən İran-Azərbaycan münasibətlərindən danışarkən deyib.**

Analitikin fikrincə, İran daim Ermənistanı silahlandırıb və dəstəkləyib:

”Hələ azmış kimi daxildə təxribatçı qruplar yaradıb, onları da silahlandırıb. Hətta səfirlikdən də istifadə edib. Əlbəttə, biz baş verənlərə dözümlü yanaşa bilmərik. Artıq geriyə yol yoxdur. Azərbaycan İranla öz dilində danışmağa başlayıb. Belə ritorika davam edəcək.

Prezident İlham Əliyevin Güneydə yaşayan soydaşlarımızın haqq və hüquqlarının qorunması məsələsini Türk Dövlətləri Təşkilatının (TDT) gündəliyinə daşıması təsadüfi deyil. Bu, İranı narahat etməklə bərabər, həmçinin güneyli soydaşlarımıza ciddi dəstək və stimul idi.

Soydaşlarımız yalnız deyil və onların yanında olduğumuzu hiss edirlər. Təbriz küçələrində İlham Əliyevin posterləri, müxtəlif şüarlar və s. təbii olaraq molla rejimini qorxudur. Verilən mesaj isə budur: biz azadlıq, ədalət və milli hökumət tələb edirik”.

*Qeyd edək ki, Azərbaycan-İran münasibətlərinin gərgin olduğu ərəfədə Təbrizdə Prezident İlham Əliyevə dəstək posterləri yayılıb. Güney Azərbaycan şəhərlərində divarlara dövlət başçısının fotoları vurulub.*

**Aygün Tahir**

## Qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyətlərinin qarşısı alınıb



**“Ağdam və Xocalıda qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyətlərinin qarşısı alınıb”.**

Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyindən bildirilib.

Məlumata görə, noyabrın 17-si saat 09:55-dən 14:45-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvlərinin Ağdam və Xocalı rayonları ərazilərində döyüş mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis tədbirləri icra etmələri Ordumuzun bölmələri tərəfindən müşahidə edilib. Bu kimi fəaliyyətlər Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladıqları üçtərəfli bəyanatın tələblərinin kobud şəkildə pozulmasıdır.

Vurğulanıb ki, həyata keçirilən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə Ordumuzun bölmələri tərəfindən zəruri tədbirlər görülüb.

## Gələn il pensiyalar 14 faiz artacaq

**Orta aylıq əməkhaqqının cari ilin sonuna 838 manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da gələn ildə pensiyaların orta hesabla 14,5% artırılmasını təmin etməyə imkan yaradacaqdır.**

Trend-in məlumatına görə, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlament noyabrın 17-də keçirilən plenar iclasında deyib.

O bildirib ki, 2022-ci ildə Fondun büdcəsini balanslaşdırma məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 468 milyon manat proqnozlaşdırılır ki, bu da 2022-ci il üzrə dürüstləşmiş transfert məbləğindən 235,8 milyon manat və ya 19% çoxdur.

*Qeyd edək ki, Fondun 2023-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 263 milyon 970 min manat proqnozlaşdırılır ki, bu da cari ilin büdcəsinə nisbətən 657,7 milyon manat və ya 11,7% çoxdur. Fondun gəlirləri 2018-2023-cü illər ərzində 2511,8 milyon manat, yaxud 67% artıb.*

# Təqaüdçülər 290 manat alır

## “Problemlər çoxdur və bunlara da diqqət edilməlidir”



**”Manatın məzənnəsinin qorunub saxlanılması, neftin bir barelinin 50 dollardan götürülməsi, inflyasiyanın mümkün qədər qarşısının alınması normal haldır”. Bunu Milli Məclisdə çıxışı zamanı deputat Vahid Əhmədov deyib. Deputat bildirib ki, neft-qazdan gələn gəlir 53, qeyri-neft sahəsində isə 47 faizdir:**

”Mən ÜDM-də qeyri-neft məhsullarından gələn gəlirlərin prioritet saxlanılmasını təklif edirəm. Eləcə də sosial sahəyə ayrılan vəsaitin artırılması müsbət addımlardır və Prezidentin bu istiqamətə göstərdiyi həssas münasibətini göstərir”.

Bununla belə Vahid Əhmədov bildirib ki, indi dünyada bir sıra problemlər var və buna diqqət edilməlidir: ”Birincisi, ərzaq təhlükəsizliyi məsələsinə ciddi yanaşmalıyıq. Bir sıra dünya liderləri bu təhlükə haqqında danışır. Ərzaq məhsullarının idxalı kifayət qədər olduğu üçün buna diqqət edilməlidir. Bununla yanaşı anti-inflyasiya tədbirlərinin sərtləşməsinə ehtiyac var”.

Deputat deyib ki, 2023-cü ildə Kənd Təsərrüfatı Nazirliyi diqqət mərkəzində olmalıdır: ”Yaxşı olardı ki, Kənd Təsərrüfatı Nazirliyi ilə Mərkəzi Bank arasında saziş imzalansın, regionlarda işləyən fermerlər və ümumiyyətlə əhaliyə kreditlər həm əlçatan, həm də aşağı faizlə olsun. Regionlarda ən ciddi məsələlərdən biri də girov məsələsidir. Bu, onlar üçün çətindir. Mən eyni zamanda büdcənin xərclər hissəsində şəffaflığın artırılması və ciddi nəzarəti vacib sayıram”.

Vahid Əhmədov bildirib ki, 2022-ci il üçün ölkədə orta aylıq əmək haqqı 800 manat təşkil edir və bu məbləğ 2023-də 898 manat olacaq: ”Təxminən 100 manat artım olacaq. Amma nəzərə almaq lazımdır ki, insanların hamısı bunu ala bilmir. Təqaüdçülər 280-290 manat alır. Problemlər çoxdur və bunlara da diqqət edilməlidir”.

**İsmayıl**

# "Milli Dirçəlişi şəhidlərimizin qanı hesabına qazanmışıq"

## İndi isə Güney Azərbaycanda dirçəliş dalğası başlayıb



**Dünən - Noyabrın 17-si Azərbaycanda Milli Dirçəliş Günü kimi qeyd olundu. Bu bayram 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda başlayan milli-azadlıq hərəkatı ilə bağlıdır.**

Qeyd edək ki, Milli Dirçəliş Günü 17 noyabr 1992-ci ildə elan olunub və artıq iki ildir, bu əlamətdar gün Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur.

**Milli Dirçəliş günü münasibətilə Azərbaycan xalqını təbrik edən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu gün bütün millətlər üçün əlamətdar ola biləcək bir məsələdir:**

”Novruz bayramı necə türkün Ergenekondan çıxması ilə bağlıdırsa, Milli Dirçəliş də istiqlala getmək üçün işğaldan çıxışdır. 1988-ci ildə başlayan hərəkat, ölkəmizdə 1991-ci ildə müstəqillik aktının qəbul edilməsi ilə yekunlaşdı. Əslində bu millətin uzun illərdir, apardığı mübarizənin nəticəsi idi.

Düzdür, bu, başlanğıc da sayıla bilməz. Çünki buna qədər Azərbaycan bölünəndən, 1988-ci ilə kimi vuruşub. Həmin ərəfəyə qədər hətta Güney Azərbaycanda 3-4 dəfə inqilab olmuşdu. Lakin 1988-ci ildə olan dalğa bizim müstəqil olmağımız ilə sona çatdı. Bizə bu müstəqilliyin verildiyini deyənlər isə çox yanılırlar.

Ona görə ki, 1988-ci dünyada, azərbaycanlılar ilin ən mübariz xalqı adını aldı. Mübarizə aparmayan bir xalq heç vaxt bu ada layiq görülməz.

Dirçəliş və müstəqillik şəhidlərimizin qanı, canı hesabına əldə edildi. SSRİ-nin saxlanılmasına etiraz edən millətimiz, müstəqillik aktını 98 faizlə qəbul etdi.

Çox şükürlər olsun ki, iki il əvvəl işğal altında olan torpaqlarımız müzəffər ordumuzun şücayəti ilə azad edildi. İndi isə Güney Azərbaycanda dirçəliş dalğası başlayıb.

Ümid edirəm ki, bu dalğa Güneyin müstəqilliyi ilə sona çatacaq və günün birində hər iki Azərbaycan qovuşacaq”.

**Nihat Müzəffər**

# Paşinyan yaxşı anlayır ki, Bakı təklifləri qəbul etməyəcək

## Tofiq Zülfüqarov: "Ermənistan rəhbərliyi sülhə yaxın gəlmir, regiona kənar qüvvələr gətirməyə çalışır"



"İrəvanda əminlik var ki, yaxın günlərdə Fransa və Rusiya Ermənistanın lehinə ortaq məxrəcə gələcəklər. Amma istənilən halda Azərbaycanın əlində güclü kozurları var"

**"Sərhədlərin delimitasiyası prosesi bir neçə il çəkə bilər. Bu səbəbdən Ermənistan tərəfi Azərbaycanla sülh müqaviləsi əvəzinə çərçivə sazişi imzalamağı nəzərdən keçirir".**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı deyib. Paşinyanın sözlərinə görə, sülh müqaviləsinin imzalanması zamanı sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başa çatması real görünmür.

"Bunun üçün İrəvan Ermənistan-Azərbaycan sərhədinin hərbisizləşdirilməsinin, qoşunların qarşılıqlı çıxarılmasından başlamağın və sərhədin müəyyənləşdirilməsində 1990-cı ilin xəritələrinin əsas götürülməsinin tərəfdarıdır. Sonra sərhədçiləri yerləşdiririk və beləliklə bu məsələ bir müddət bağlanır. Sonra çərçivə sənədini imzalayırıq və delimitasiyaya başlayırıq ki, bu da bir ildən çox davam edə bilər". Baş nazir bildirib ki, çərçivə sazişi ümumiyyətlə, heç bir ciddi təfərrüat, detallar göstərilmədən mövcud vəziyyəti düzəldəcək: "Təcrübə göstərir ki, təfərrüatlara, detallara cəhd etmək danışıqlarda çətinliklərə səbəb ola bilər". Paşinyan 2018-ci ildə olduğu kimi, indi də danışıqların "bir nömrəli" iştirakçısının "Dağlıq Qarabağ" erməniləri olduğunu vurğulayıb: "Ümid edirik və belə görünür ki, beynəlxalq ictimaiyyət də Dağlıq Qarabağ və Azərbaycan nümayəndələri arasında respublika ermənilərinin hüquqları və təhlükəsizliyi ilə bağlı beynəlxalq səviyyəli söhbət olmasını istəyir. Bizim Ermənistan-Azərbaycan münasibətləri məsələsini Qarabağ ermənilərinin problemlərinin həllindən ayırmağa razı olmağımız o demək deyil ki, ermənilərin təhlükəsizliyi və hüquqları məsələsini gündəmdən çıxarmağa razıyıq".

**Baş nazirin absurd açıqlamalarını "Şərq"ə dəyərləndirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Ermənistan rəhbərliyi köhnə mövqeyini təzə formada təqdim edir. Politoloq bildirib ki, Paşinyan hər zamankı kimi birbaşa "yox" deməmək üçün reallaşması qeyri-mümkün olan təşəbbüsü gündəmə gətirir:** "Paşinyan özü də yaxşı bilir ki, etdiyi təklif rəsmi Bakı tərəfindən qəbul edilməyəcək. Ermənistan hələlik Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. İrəvan hökuməti hesab edir ki, qondarma rejimin təmsilçiləri bu və ya digər formada Azərbaycanla sülh danışıqlarında "tərəf" kimi iştirak etsin. Hazırda Ermənistanın bir nömrəli məqsədi budur. Paşinyan ortaya sərsəm iddialar atır, deyir ki, "hərbsizləşdirilmiş zona" yaradılmalı və ondan sonra Qarabağda ermənilərin "təhlükəsizlik qüvvələri"nin sayı azaldıla bilər. Burada söhbət hansısa azalmadan getmir. Qarabağdakı bütün qeyri-qanuni silahlı birləşmələr, erməni yaraqlıları qeyd-şərtsiz bölgəni tərk etməlidir. Bunların hamısı sülh danışıqları ətrafında gedən oyunlardır. Çünki Ermənistan rəhbərliyi İrəvana təzyiqlərin fərqindədir. Rəsmi Bakı Ermənistana güclü təzyiq göstərir ki, İrəvan hökuməti 10 noyabr üçtərəfli bəyanatın müddəalarına əməl etsinlər. Həmçinin, ABŞ-dan da təzyiqlər var. Vaşinqton Azərbaycan-Ermənistan arasında sülh sazişinin imzalanmasını, problemin aradan qaldırılmasını istəyir. İndi Paşinyan çalışır ki, əlindəki isti kartofu Azərbaycanın üzərinə atsın. Sonra da iddia etsin ki, guya o, sülh təklifini edib, amma Azərbaycan bunu qəbul etmir".

**T.Zülfüqarov vurğulayıb ki, Azərbaycanın kəskin şəkildə İrana və Fransaya cavab verməsi Ermənistanı ciddi şəkildə narahat edir:** "İranın ölkəmizin işlərinə, bölgəyə müdaxiləsinə çox sərt formada cavab verildi. Eyni zamanda Fransaya da adekvat reaksiyamız oldu. Azərbaycanın gücü, Türkiyə ilə müttəfiqliyi İrəvanda təşviş yaradır. O baxımdan Ermənistan rəhbərliyi sülhə yaxın gəlmir, regiona kənar qüvvələr gətirməyə çalışır. Qarabağda təxribat törədərək Azərbaycana qarşı qətnamələrin ortaya çıxmasına səy göstərir. İrəvanda əminlik var ki, yaxın günlərdə Fransa və Rusiya Ermənistanın lehinə ortaq məxrəcə gələcəklər. Amma istənilən halda Azərbaycanın əlində güclü kozurları var".

**İsmayıl Qocayev**

# ABŞ, Rusiya və Fransanın maraqları üst-üstə düşür

## Bu dövlətlər Azərbaycanı masada geriyə çəkməyə çalışırlar



**Noyabrın 16-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**

ABŞ dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqların keçirildiyini vurğulayıb. O, ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha qeyd edib.

Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-ın bu istiqamətdə göstərdiyi səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.

Antoni Blinken Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın olduğunu deyib. Dövlət katibi ABŞ-ın bu istiqamətdə səylərini davam etdirəcəyini bildirib.

Telefon danışığı əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə növbəti görüşün keçirilməsi və etimad quruculuğu tədbirlərinə dair fikir mübadiləsi aparılıb.

**Blinkenin Paşinyanla danışdıqdan sonra İlham Əliyevə zəng etməsinin çox önəmli olduğunu deyən AĞ Partiyanın sədr müavini politoloq Əhəd Məmmədli "Şərq"ə deyib ki, ABŞ Fransadan fərqli olaraq hər iki tərəflə münasibət qurmağa və bu məsələdə söz sahibi olmağa çalışır:**

"Həmçinin burada dövlətlər arasında "Azərbaycanla Ermənistanı kim sülhə gətirəcək?!" rəqabəti də gedir. Təbii ki, burada hər bir dövlətin öz maraqları var. Təəssüf ki, bu məsələdə ABŞ, Rusiya və Fransanın maraqları Ermənistanla üst-üstə düşür. Onlar maksimum çalışırlar ki, masada Azərbaycanı geriyə çəksinlər və Qarabağ erməniləri üçün üstünlüklər əldə etsinlər. Lakin biz bu məsələdə konkret mövqe ortaya qoymalıyıq.

Prezident İlham Əliyev son çıxışında da söylədi: "Qarabağ ermənilərini mövzusunda Azərbaycan əvvəlki mövqeyində qalır və heç bir vardanyanlarla hansısa danışıqlar ola bilməz". Rəsmi Bakı bu mövqeyini davam etdirməlidir.

Çünki Rusiya və Amerika kimi güclər, Azərbaycanın hərbi meydandakı uğurlarını kölgəyə salaraq, onun masa ətrafında geri çəkilməsinə nail olmaq istəyirlər".

**Nihat Müzəffər**

# Molla rejimi Borçalıya da barmaq uzadıb

## Bu bölgədə din altında siyasi-məzhəbçi təbliğat artıq son həddə çatıb

**Son vaxtlar Borçalı türklərinin İran dini təbliğatına məruz qalması, insanların beyinlərinin mollalar tərəfindən yuyulması Azərbaycan ictimaiyyəti tərəfindən narahatlıq doğurur. Xüsusən də Gürcüstan azərbaycanlıları zaman-zaman sosial şəbəkələrdə sözügedən məsələlərlə bağlı həyəcan təbili çalıb.**

Son zamanlar yaşanan proseslər fonunda Borçalıda İran dini ideologiyasının bu qədər vüsət almasını ekspertlər təhlükəli sayırlar. Qeyd edilir ki, uzun illərdir İran emissarlarının Gürcüstanda Azərbaycan türklərinin sıx yaşadığı bölgədə - Borçalıda təbliğat fəaliyyəti öz nəticəsini göstərir.



"Gürcüstan hökuməti də buna bir qədər loyal yanaşır. Ola bilsin, onlara da bu lazımdır. Əks halda İranın orada bu qədər meydan sulamasına imkan verməzdilər"

Soydaşlarımız İranın təsiri altına necə düşüblər? "Xəzər Xəbər"in çəkiliş qrupu Gürcüstanda bir həftə olaraq bu mövzunu ətraflı şəkildə araşdırıb.

Çəkilişlər əsasən Tbilisi, Marneuli, Qaraçöpdə aparılıb. Burdakı ziyalılar, ağsaqqallar, din xadimləri, sadə vətəndaşlarla söhbətlər edilib, mövzu ilə bağlı suallar verilib. Araşdırma nəticəsində məlum olub ki, Gürcüstanda İran sərmayəli 11 min 751 təşkilat, şirkət fəaliyyət göstərir.

Bəs onlar öz fəaliyyətlərini necə qururlar? Gürcüstandan İrana avtobus səfərlərini kim təşkil edir? Soydaşlarımız İranın hansı dini şəhərlərinə aparılır?

**Gürcüstanda soydaşlarımız yaşayan ərazilərin təbliğat yuvasına çevrilməsi ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı, siyasi şərhçi Tural İrfan deyib ki, Borçalıda İranın din adı altında siyasi-məzhəbçi təbliğatı artıq son həddə çatıb. Harada şiə əqidəsinə etiqad edən müsəlman varsa, İran hökmən ora barmaq edir:** "Həmin müsəlmanları təsir altına salır, din adı altında öz siyasi maraqlarının alətinə çevirir. İran rejiminin ümumiyyətlə ideoloji xətti inqilabı ixrac etməkdir. Yəni bütün müsəlman ölkələrinə öz məzhəbçi, farsçı ideyalarını yeritməkdir. O cümlədən Azərbaycanda və Gürcüstanda da öz agentura şəbəkəsini qurub əsasən din pərdəsi altında təxribatçı işlər görüblər. Gürcüstanda soydaşlarımız arasında da İran öz dayaqlarını qurub və əsasən onları türk dünyasının bir parçası olmaqdan, azərbaycançılıqdan ayırmaq məqsədi ilə məzhəbçilik nifaqını yayıblar. Bildiyimiz kimi türk dünyasının 90 faizi sünni müsəlmanlardır. İran isə şiəlik pərdəsi altında əslində sünni düşmənçiliyi yayır və nəticədə bir çox ölkələrdə yaşayan azərbaycanlılar milli kimliyini məzhəbçiliklə əvəz edir. Gürcüstan hökuməti də buna bir qədər loyal yanaşır. Ola bilsin, onlara da bu lazımdır. Əks halda İranın orada bu qədər meydan sulamasına imkan verməzdilər".

*İlahiyyatçının sözlərinə görə, İran Gürcüstanda fəaliyyətini dini mədrəsələr, məscidlər vasitəsi ilə qurur. Oradakı dini icmaların rəhbərləri də İran təmayüllü təhsil almışlardır:* "Azərbaycan Respublikasının aidiyyəti orqanları bu məsələyə də nəzər yetirməlidir. İrandan bu gün hansı təhlükələr gəlirsə sabah bu təhlükə Gürcüstandan, özü də öz soydaşlarımızın əli ilə gözlənilə bilər. Ən əsası isə Gürcüstandakı İran təbliğatının yerini Azərbaycan və Türkiyə əvəz etməlidir. Azərbaycanın öz din modeli olmadığına görə bu bir qədər çətindir. Ancaq Türkiyə bu işdə təcrübə sahibidir. Dünyanın bir çox ölkələrində fondlar, mədrəsələr açır və təbliğat aparmaq iqtidarındadır.

Ona görə hesab edirəm ki, soydaşlarımızın dini inancının İran tərəfindən təhrif olunaraq siyasi, farsizm ideologiyasına alət edilməmiş işlər görülməlidir. Bir neçə il əvvəl Gürcüstan Qafqaz Müsəlmanları İdarəsinin tərkibindən çıxdı və müstəqil dini idarəsini yaratdı. Amma bu idarə İranın orbitinə düşdü. Azərbaycanda milli islam modelinin təşəkkülü üçün milli düşüncəli ilahiyyatçılara şərait yaradılmalıdır və bir çox təbliğat vasitələri olmalıdır ki, ən azı televiziyalar vasitəsi ilə Gürcüstanda yaşayan soydaşlarımız da yad təsir altına düşməsin".

**Şeymən**

# Polşaya düşən raketi Rusiya atmayıb

## Amerika indiki məqamda müharibənin Rusiya-Ukrayna kontekstindən kənara çıxmasını istəmir

**Polşa ərazisinə düşən qanadlı raketlər Rusiya-Ukrayna müharibəsinə yanaşmanın dəyişdiyini göstərir. ABŞ və Polşa prezidentləri raketlərin Ukraynaya məxsus olduğunu iddia etsə də, Ukrayna prezidenti bu iddianı təkzib edib. V.Zelenski sonuncu çıxışında deyib ki, Polşaya düşən raketlərin Ukraynaya aid olmadığına tam əmindir. Ukrayna rəhbərliyi insidentin ilk dəqiqələrindən etibarən Rusiyanı günahlandırır.**



Zelenskinin açıqlamasından belə çıxır ki, ABŞ və Polşa rəhbərliyi reallığı dəyişdirir. Polşa Baş naziri Mateuş Moravetski qeyd edib ki, hadisələrin inkişafı və gecə saatlarında alınan məlumatlar bizi belə qənaətə gətirdi ki, bu, Polşaya qəsdən edilmiş hücum deyil: "Hazırda əldə etdiyimiz məlumata görə, Polşa ərazisinə hücum planı olmayıb. Ona görə də 4-cü maddədən istifadə etmədik, amma onu hazır saxladıq". Yəni Polşa bəyan edir ki, "bu, qəsdən vurulmuş zərbə deyil". NATO baş katibi Yens Stoltenberq də bənzər formada deyib ki, "Polşaya düşən raketlərin Ukrayna hava hücumundan müdafiə qüvvələrinə məxsus olması faktı təsdiqlənib. Polşadakı insidentin düşünülmüş hərəkətlərin nəticəsi olduğuna dair heç bir təsdiq yoxdur". Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, indiki məqamda ABŞ və Polşanın, habelə NATO-nun verdiyi açıqlamalardan çıxan nəticələr bunlardır: "Polşaya düşən raketləri həqiqətən də Rusiya atmayıb. Lakin bu yenə də heç nəyi dəyişmir. Yəni raketlərin ruslara məxsus olduğu sübut olunsaydı belə, aydın məsələdir ki, ABŞ və Polşanın mövqeyi dəyişməyəcəkdi. Çünki Polşa Ukrayna deyil və rəsmi Varşavaya atılacaq raket NATO-ya atılmış deməkdir. Bu isə öz növbəsində NATO nizamnaməsinin 4-cü maddəsinin işə düşməsidir. Amerika indiki məqamda müharibənin Rusiya-Ukrayna kontekstindən kənara çıxmasını istəmir. Hadisələrin gəldiyi nöqtə onu deməyə əsas verir ki, Vaşinqton Kiyev və Moskvanı danışıqlar masasına əyləşdirmək istəyir. Bunu Zelenskinin keçəngünkü çıxışında qeyd etdiyi "qərbli müttəfiqlərdən Putinin birbaşa danışıqlara hazır olduğu barədə məlumat aldım" sözləri də təsdiqləyir. Zelenskinin sözlərindən Kiyevin danışıqlara istəksiz olduğu sezilir. Əslində, bu, təbiidir. Ukrayna tərəfindən səsləndirilən təkliflər Rusiyanı, Moskvanın sülh versiyası isə Kiyevi qane etmir. Digər tərəfdən, Rusiya qüvvələri Ukraynanın kritik infrastrukturuna qarşı raket zərbələrini də şiddətləndirib. Proseslər özünün növbəti mərhələsinə qədəm qoyur".

**İsmayıl Qocayev**

# Qarabağa təkcə yerli əhali qayıtmamalıdır

## "2026-cı ilə qədər Qarabağa 300-400 min nəfəri qaytarmaq mümkündür"



**"Azərbaycan ailəsini adətən 3-4 nəfərdən ibarət hesab etsək, bu, 120-130 min şəxs sayı edir".**

*Bunu "Şərq"ə siyasi şərhçi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli azad edilən ərazilərə 34 500 ailənin köçürüləcəyi ilə bağlı danışarkən bildirib. Onun sözlərinə görə, dövlət xətti ilə köçürülmə prosesi ilə yanaşı, paralel şəkildə Böyük Qayıdışı reallaşdıracaq özəl şirkətlər olmalıdır:* "Eyni zamanda əlbəttə ki, təkcə Qarabağ əsilli şəxslərin qaytarılması nəzərdə tutulmamalıdır. Mütləq bölgədə savaşan, vuruşan, orada yaşamağa ehtiyacı olan şəxslərin də yaşam standartlarına izin verilməlidir. Hətta 2026-cı ilə qədər 300-400 min nəfəri geri qaytarmaq mümkündür".

*Qeyd edək ki, 2026-cı ilədək azad edilən ərazilərə 34 500 ailənin köçürülməsi nəzərdə tutulur.*

*Bu, Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb.*

**Sücayət Mehti**





# “Havadan barıt qoxusu gəlir"

**Siyavuş Novruzov:** “Təklif edirəm ki, büdcədə təhlükəsizlik, müdafiə məsələləri geniş əhatə olunsun”

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasda hökumət nümayəndələrinin iştirakı ilə 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib. Deputatlar büdcə müzakirəsi zamanı çoxsaylı məsələlərdən danışıblar, uğurlarla yanaşı, problemləri də gündəmə gətiriblər. Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib ki, səhiyyə xərclərində əhəmiyyətli artım nəzərdə tutulur. Deputat bildirib ki, icbari tibbi sığortadan əhalinin məmnunluğu artır:**

”Ancaq bir qrup xəstəliklər hələ də icbari tibbi sığorta ilə əhatə olunmayıb. Onlar arasında onkoloji xəstəliklər, autizmli və s. də var. Onkoloji xəstəliklərin icbari tibbi sığorta ilə əhatə olunmaması bu xəstəliyin adekvat müalicəsinə mane olur və insanların narazılığına səbəb olur”.

**“Qusarda qazlaşdırılmış kəndlərin məktəblərində odun və torf yandırılır”**

**Deputat Azər Badamov bildirib ki, Qusar rayonunun cəmi 57 faizi qazla təmin olunub. Onun sözlərinə görə, son 4 ildə Qusar rayonunda qaz çəkilişi həyata keçirilməyib:** ”Digər problem qazlaşdırılmış kəndlərdə məktəblərin qızdırılmaması ilə bağlıdır. Təsəvvür edin ki, qazlaşdırılmış 12 kənddə məktəblərin qazanxanası yoxdur. Məktəblərdə sinif otaqlarında odun və torf yandırılır ki, bu da normal iş mühitinin davam etdirilməsini çətinləşdirir. Düşünürəm ki, bu məsələnin həlli elə də böyük maliyyə tələb etmir”.

**“Zabit və əsgərlərin ödənişləri 20 deyil, 50 faizə qədər artırılsın”**

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, gələn ilin büdcə layihəsi Vətən müharibəsində qələbəmizi möhkəmləndirir.** Murovdan Arazadək 400 km-dən artıq, o cümlədən, İranla 132 km-lik sərhəddə güclü hərbi müdafiə sistemi qurmağa, o cümlədən gələn ilin müharibə provokasiyalarına qarşı ordunu gücləndirməyə imkan verir: ”Təklif edirik ki, yeni qazandığımız və hələ delimitasiya edilməyən sərhədlərdə hərbi mövqe tutan zabit və əsgərlərin ödənişləri indiki kimi 20 faiz deyil, 50 faizə qədər artırılsın. Bundan ötrü 100 milyonlara ehtiyac yoxdur, lakin nəticə təhlükəsizliyimiz üçün önəmlidir”. Z.Oruc deyib ki, 16 noyabr 2020-ci il tarixi müstəqilliyimizin 30 ilində Qələbə təqviminin növbəti parlaq günüdür: ”Prezidentin imzaladığı Böyük Qayıdışa dair I Dövlət Proqramı tarixi qərardır. Təklif edirik ki, 19 iyul 2022-ci ildə Ağalıdan başlanan yurda dönüş Böyük Qayıdış günü kimi rəsmiləşdirilsin və dövlət protokoluna daxil edilsin. Bununla bərabər, Hökumət Xankəndi və ətraf 3 bölgədə yeni səngər və təmas xətti quranlara qarşı yalnız hərbi vasitələrlə deyil, ermənilərin Azərbaycan cəmiyyətinə dönüşü və birgəyaşayışına dair planlarını açıq elan etməklə cavab versin”. Deputat qeyd edib ki, son 10 ildə Azərbaycanda 0-19 yaş qrupu üzrə əhalinin sayında 2 faizədək azalma, 60 yaşdan yuxarı əhalinin sayında 65 faiz artım var: ”Əhalinin demoqrafik qocalması baş verir. Ona görə də Böyük Qayıdışı həm də demoqrafik artıma çevirməkdən ötrü işğaldan azad edilmiş torpaqlarda doğulan uşaqlara yeni dövlət ödənişləri-Qələbə müavinətlərinin verilməsi təkcə sosial deyil, həmçinin, mühüm siyasi qərar olardı. Dayanıqlı məskunlaşma, böyük ailələrin gələcək daxili miqrasiyasının qarşısının alınması hökumətin qərarlarından asılıdır”.

“Bir yandan Fransa, bir yandan İran, bir yandan Rusiya fərman göndərir. Belə dövrdə təkcə hərbi müdafiədən yox, eləcə də hərbi, diplomatik, informasiya, sosial-iqtisadi, ərzaq təhlükəsizliyindən söhbət gedir”

**“Özəlləşdirmə sürətləndirilməlidir”**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, hökumət hara nə qədər pul xərcləyəcəyini əvvəlcədən proqnozlaşdıra bilmir.** Deputat bildirib ki, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nı Prezident İlham Əliyev təsdiq edib: ”Amma büdcədə bu işlərə nə qədər vəsait xərclənəcəyi açıqlanmır. Biz büdcənin gəlirlərini artırmaq barədə düşünməliyik. Bizdə iqtisadiyyatın əsas sahələri dövlətin nəzarətində olsa da, büdcəyə dövlət şirkətləri tərəfindən ödənilən vergilər çox azdır. Özəlləşdirmə sürətləndirilməlidir”. Deputat qeyd edib ki, 65 yaşa qədər olan kişilərin sayı 47 faizə çatır: ”Ona görə biz pensiya yaşının aşağı salınması barədə düşünməliyik. Heç olmasa bu kişilər 2-3 il pensiya ala bilsinlər. Digər tərəfdən, Vergi Məcəlləsinə vergi güzəştləri ilə bağlı dəyişikliklərə baxıram, burada uşaq geyimləri, uşaq yeməkləri yoxdur. Elektromobildənsə biz bunlara vergi güzəştləri tətbiq etməliyik”.

**Deputat İlham Məmmədov bildirib ki, Yevlax şəhərini 27 kəndlə birləşdirən körpü yararsız vəziyyətə düşüb. Onun sözlərinə görə, Yevlax rayonunun 17 kəndində subartezian quyuları və təmizləyicilər ümumiyyətlə yoxdur:** ”Yevlaxda 1895-ci ildə inşa olunmuş körpü yararsız vəziyyətdədir. Fövqəladə Hallar Nazirliyi həmin körpünün tam qəzalı olmasını müəyyən edib. Bu, 27 kəndin Yevlax şəhəri ilə əlaqəsinin tam kəsilməsi deməkdir”.

**“Ünvanlı sosial yardımı ləğv edib, uşaqpulu vermək lazımdır”**

**Millət vəkili Tahir Kərimli bildirib ki, uşaqpulu məsələsi ilə bağlı sistemli dəyişiklik etmək lazımdır:** Ünvanlı sosial yardımdan hamı narazılıq edir. Buna görə də hamının razı qalması üçün uşaqpulu vermək lazımdır. Deputat dağ kəndlərində, rayonlarında qaz limitinin ləğv olunmasını da təklif edib.

**“Havadan barıt qoxusu gəlir”**

**Deputat Siyavuş Novruzov deyib ki, Milli dirçəliş və milli azadlığa gedən yol ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.** Bu proses məhz Azərbaycanın müstəqilliyinə gətirib çıxarıb. Onun sözlərinə görə, bu gün Türkmənçay müqaviləsindən sonra 200 illiyi ərəfəsində Ali Baş Komandan İlham Əliyev yeganə şəxsdir ki, şəkli Azərbaycanın ürəyi olan Təbrizdə, Ərdəbildə, Xoyda və digər yerlərdə divarlara vurulub: ”Onun adı Azərbaycan xalqının lideri, Qarabağın fatehi kimi çağırılır. Cənublu qardaşlarımıza demək istəyirəm ki, bu fatehlik təkcə Qarabağla bitməyəcək, onun fatehliyindən çox yeniliklərin şahidi olacağıq. Ona görə də burada büdcəni müzakirə edən vaxt dünyada baş verən hadisələr içərisində kiçik məsələlərə getməyib qlobal məsələləri ortaya qoymalıyıq. Bilirsiniz ki, bu gün havadan barıt qoxusu gəlir. Bu baxımdan təklif edirəm ki, büdcədə təhlükəsizlik, müdafiə məsələləri geniş əhatə olunsun. Bir yandan Fransa, bir yandan İran, bir yandan Rusiya fərman göndərir. Belə dövrdə təkcə hərbi müdafiədən yox, eləcə də hərbi, diplomatik, informasiya, sosial-iqtisadi, ərzaq təhlükəsizliyindən söhbət gedir. Bu da qlobal məsələlərdən biridir ki, bunları həll etməliyik. Hökumətlə bir yerdə bir yumruq kimi bir yerə vurmalıyıq, hökumətin fəaliyyəti dəstəklənməli, lazımi qanunlar qəbul edilməlidir”.

**“İnternat evlərindən məhrum olan uşaqlar ev, işlə təmin olunmalıdır”**

**Deputat Hicran Hüseynova internat evlərini tərk edən uşaqların iş problemini qaldırıb:** ”İnternat evlərindən məhrum olan uşaqların ev, işlə təmin olunmasına diqqət çəkmək istəyirəm. Məsələn, qardaş Türkiyədə internat evlərini tərk edən uşaqları işlə təmin edən şirkətlərə vergi güzəştləri tətbiq olunur. Təklif edirəm ki, aidiyyəti orqanlar proqram hazırlayıb təqdim etsinlər ki, dövlət büdcəsindən vəsait ayrılsın”.

**Deputat Məlahət İbrahimqızı deyib ki, dövlət proqramı çərçivəsində Türkiyədə təhsil alan tələbələrin təqaüdü artırılsın:** ”Bu təqaüd o qədər aşağıdır ki, mən onu səsləndirməyi özümə sığışdırmıram. İkincisi, təhsil almağa gedən hərbi zabitlərlə bağlı problemlər də var. Hökumət üzvlərinə bu problemlərin həllinə diqqət göstərməsini təklif edirəm”.

**Deputat Eldar Quliyev Bakı kəndlərində qəbiristanlıqların çatışmadığını qeyd edib:** ”Dəfələrlə mənə ağsaqqallar müraciətlər ediblər. Bakı kəndlərində qəbiristanlıqlar çatışmır. Bu məsələ ilə bağlı hökumətdən boş qalan əraziləri qəbiristanlıq kimi istifadəsinə icazə vermələrini istəyirlər. Bu çox ciddi problemdir və bu problemin həll edilməsinə köməklik göstərməyinizi istəyirəm”.

**İsmayıl Qocayev**

# Millət vəkilləri təkliflər səsləndirib

## Güney azərbaycanlıların Azərbaycanda təhsil almasına şərait yaradılmalıdır





**Deputatlar güney azərbaycanlıların ali məktəblərdə təhsil almasına şərait yaradılmasını təklif ediblər. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, İran ərazisində yaşayan soydaşlarımız bizə müraciət edərək bildirirlər ki, öz ana dilində təhsil almaq hüquqlarından məhrumdurlar:**

“Təklif edirəm ki, onlara müəyyən güzəştlər edilsin və Azərbaycanda təhsil alacaqları təqdirdə onlara xarici tələbələr kimi baxılmasın”. O qeyd edib ki, dövlət sərhədindən kənarda yaşayan soydaşlarımız Azərbaycana gəlib burada təhsil almaq istəyəndə onlara dəstək olunmalıdır: ”Şəhid ailələri, müharibə veteranları və qazilər hər zaman dövlətin diqqətindədir. Müharibə iştirakçıları güzəştli ipoteka şərtlərindən yararlana biləcək siyahıda olsa yaxşı olar. Çünki onların buna ehtiyacı var. Onların övladları ödənişli ali təhsil alanda da güzəşt edilməsi yaxşı olardı”.

Deputat həmçinin, ölkədə satışda olan dərmanların qiymətlərinin baha olmasından şikayətlənib: ”Təklif edirəm ki, dərmanların qiymətinin aşağı salınması məsələsinə mütləq baxılsın və müəyyən mexanizm hazırlansın”.

**Milli Məclisin deputatı Fəzail Ağamalı güney azərbaycanlıların ölkənin ali məktəblərində təlsil almasına şərait yaradılmasını təklif edib.** O, parlamentin plenar iclasında çıxışı zamanı gələn ilin dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsaitdən, təxminən, 10-15 milyon manatın məhz bu məqsədlər üçün nəzərdə tutulmasını istəyib.

**İsmayıl**

# Süni qiymət artımı görürük

## Buna görə də büdcədə bu istiqamətdə nəzərdə tutulan vəsaitin inflyasiyanı üstələməsi lazımdır



**“Əməkhaqqı, müavinət artacaq xəbərinin səhəri qiymətlər daha sürətlə artır”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli deyib. O bildirib ki, insan kapitalının rəqabət qabiliyyətinin artırılması istiqamətində səylər artmalıdır:**

”Bu nöqteyi-nəzərdən Azərbaycanda 2013-cü ildə hazırlanmış ”Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” yenidən işlənməlidir: ”Belə addım atılsa, təhsil sahəsində çalışanların maaşı orta aylıq əməkhaqqından yuxarı olacaq. Digər tərəfdən, inkişaf etmiş ölkələrdə elmə ayrılan vəsait adambaşına 700 dollardan çox, Azərbaycanda isə 20 dollardan aşağıdır. Hesab edirəm bu istiqamətdə proqram hazırlanmalı, islahatlar çərçivəsində elmə ayrılan vəsait artırılmalıdır. Eyni zamanda büdcədə sosialyönümlü xərclər əhəmiyyətli dərəcədə artıb. Süni qiymət artımı görürük. Buna görə də büdcədə bu istiqamətdə nəzərdə tutulan vəsaitin inflyasiyanı üstələməsi lazımdır. Xüsusilə monopoliyada olan inflyasiyanın yerinə 2023-cü ilin büdcəsində ciddi artım tədbirlərinin həyata keçirilməsi vacibdir”. Ə.Məsimli qeyd edib ki, yeni strategiya çərçivəsində təhsilə dövlət tərəfindən ayrılan vəsaitin indiki ÜDM-nin 4 faizdən 6 faizə qaldırılması üçün mərhələli şəkildə işlər aparılmalıdır.

**İsmayıl**

## Kiçik bir qaz sızması böyük partlayışlara səbəb olur

# Hadisə bir anda baş verir

## Vətəndaşlar dönə-dönə düşünməlidir



“Yeni tikili binalarda vətəndaşlar mənzil alan zaman, əksər hallarda bir otaqlı mənzili iki otaqlıya, iki otaqlı mənzili isə üç-dörd hissəyə ayırmaqla konstruksiya dəyişikliyi edirlər. Belə olan halda mətbəxin yerində olan şaxtanın yeri dəyişdirilir, kustar üsulla hardasa nəsə bir şey qoşmaq istəyirlər”

**Xırdalan şəhəri, ”AAAF Park” Yaşayış Kompleksindəki binalardan birinin ikinci mərtəbəsində baş vermiş partlayışla bağlı ”Azəriqaz” İstehsalat Birliyi rəsmi açıqlama verib. Birliyin mətbuat xidmətinin rəhbəri Eldəniz Vəliyev qeyd edib ki, partlayışa səbəb sözügedən binada yaşayan sakinin mənzilinin texniki şərtində etdiyi dəyişikliklər olub:**

”İlkin məlumata görə, vətəndaş fərdi yaşayış evində mətbəxi eyvana köçürməklə texniki dəyişiklik edib. Bilirsiniz ki, texniki şərtdən kənara çıxırsınızsa, bu, kustar üsulla, qeyri-qanuni həyata keçirilir. Çox təəssüf ki, bu addımın səbəbi belə neqativ hala gətirib çıxır. Bu hallar baş verməsin deyə hər kəsə müraciət edirik ki, texniki şərtdən kənara çıxmaq, qazla bağlı texniki şərtləri pozmaq olmaz. Çünki bu zaman quraşdırılan istilik cihazları müxtəlif parametrlərə uyğun təşkil edilir. Siz bu dəyişiklikləri edəndə normaları nəzərdən qaçırdığınız üçün bu kimi hallar baş verir”.

“Azəriqaz” sözçüsü onu da qeyd edib ki, qaz digər kommunal xidmətlərdən daha təhlükəli nəticələrə gətirib çıxara bilir.

Son vaxtlar çoxmərtəbəli binalarda qaz sızması nəticəsində baş verən partlayış hadisələrinin artması haqlı olaraq əhalidə narahatlıq və çoxmənzilli binaların təhlükəsizliyinə inamsızlıq yaradıb.

**Əmlak üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, sakinlərin mənzillərin konstruksiyalarına etdiyi dəyişikliklər gözlənilməz hadisələrin baş verməsinə şərait yaradır.** ”Yeni tikili binalarda vətəndaşlar mənzil alan zaman, əksər hallarda bir otaqlı mənzili iki otaqlıya, iki otaqlı mənzili isə üç-dörd hissəyə ayırmaqla konstruksiya dəyişikliyi edirlər. Belə olan halda mətbəxin yerində olan şaxtanın yeri dəyişdirilir, kustar üsulla hardasa nəsə bir şey qoşmaq istəyirlər. Bununla da mətbəxdə olan qaz ümumi havalandırmaya qoşulu olmur. Əgər kiçik bir qaz sızması olarsa, nəticədə hansısa bir alışma səbəbindən, partlayış qaçılmaz olur. Həmçinin belə şaxta olmaması, yer dəyişikliyi səbəbindən qazdan boğulma halları da çox baş verir”.

Ekspertin fikrincə, Xırdalan və onun kimi sıx yaşayış massivlərində həyət evlərində də yanğınlar digər ərazilərə nisbətən daha çox baş verir. Ekspert bunun səbəbini həmin ərazilərdə olan sıx tikintilər ilə əlaqələndirdi: ”Həyət evləri bir-birinə yapışıq formada tikilib, bütün tikinti normativləri pozulduğu üçün yollar da darısqal olduğuna görə fərdi evdə yanğın baş verən zaman həmin qısa müddət ərzində bu artıq qonşu mənzillərə də keçə bilir. Çünki həyət evləri arasındakı məsafə normativləri qorunmadığına görə bu cür halların baş verməsi qaçılmaz olur. Digər tərəfdən yeni tikili binalarda adətən həyətyanı sahələr az olur. Avtoparkların olmaması da vətəndaşları binanın girişində və ya yol kənarında maşınlarını saxlamağa məcbur edir. Hadisə baş verən zaman isə yanğınsöndürən və təcili yardım binanın həyətinə və əraziyə girişdə çox ciddi çətinlik çəkirlər. Bu da yenə yanğının alovlanmasının qarşısının alınmasında bir problem yaradır”.

**Azad İstehlakçılar Birliyinin kommunal xidmətlər üzrə mütəxəssisi Nüsrət Qasımovun sözlərinə görə, hansısa qaz sızıntısı, elektrik xəttinin düzgün qoşulmaması həm ev sahibinə, həm də ətrafdakı evlərə zərər verə, insan tələfatı ilə nəticələnə bilər:** ”Çoxmənzilli binalarda isə diqqət üst səviyyədə olmalıdır. ünki mənzillər bir-birinə bitişikdir. Yaşayış binaları panellərin bir-birinə bağlanması yoluyla tikilir. Ümumi qaz, su xətti, elektrik enerjisi bloku olur. Bir mənzildə baş verəcək nasazlıq bütün binanı silkələyə, güclü partlayışa və insan tələfatına, ağır xəsarətlərə səbəb olar. Qaz, işıq, su idarələri ərazilərdə mütəmadi yoxlamalar, monitorinqlər aparmalı, qəzalı vəziyyətdə olan, köhnəlmiş boruları, xətləri yeniləməli, təhlükəsizlik məsələlərini gözardı etməməlidir”.

*Mütəxəssisin fikrincə, çoxmərtəbəli binalar inşa ediləndə bütün lazım olan təhlükəsizlik norma və standartlar nəzərə alınmalıdır:* ”Qaz sızmasından qorunmaq üçün ilk növbədə detektor cihazlarının quraşdırılması vacibdir. Xüsusilə birinci mərtəbədə yaşayan şəxslər bu cihazlardan istifadə etməlidirlər. Avropa ölkələrində binaları tam olaraq detektorla təmin edirlər. Bu cihazlar istənilən tez buxarlanan maddələrə qarşı reaksiya verir. Detektor cihazlarının sayğacın yanında xüsusi klapanı olur. İçəridə sızma olan zaman həmin klapana siqnal ötürülür və qazın mənzilə verilişi avtomatik olaraq dayanır. Ona görə də xarici ölkələrdə bu cür cihazların qoyulması məcburidir. Eyni zamanda yanğına qarşı siqnalizasiya da quraşdırılmalıdır”.

Ekspert telekanallarda məsələ ilə bağlı maarifləndirmə işinin aparılmasını da vacib saydığını deyib: ”Bu cür hadisələr baş verir, ancaq televiziyalarda maarifləndirmə işlərinin aparılmasına, müzakirələrin təşkilinə rast gəlmirik. Belə hadisələrdən sonra mütəxəssislər dəvət edilməli, müzakirələr aparılmalıdır. Sovet dönəmində hansı ölkədə belə hadisə olardısa, bunun geniş müzakirələri aparılardı. Ancaq indi bu, kimsəni maraqlandırmır. Müzakirələr olarsa, camaat nəticə çıxarıb, maariflənər. Yalnız mətbuatın sayəsində insanlar maariflənirlər”.

**Şəymən**

# "Vətən anlayışı bizləri daha da gücləndirəcək"

## Məhsa Mehdili: "İran Azərbaycanın yüksəlməsinin cəzasını güney azərbaycanlılara kəsir"



**"Güney Azərbaycan milli hərəkatı son yüz ildir ki, formalaşıb. Amma bunun fəlsəfi, ictimai-siyasi kökləri yüz il öncəyə dayanır. Quzey Azərbaycanda istiqlalımızın təkrar bərpasından sonra, Güney Azərbaycan milli hərəkatı yeni mərhələyə qədəm qoydu. Bu hərəkatın iki təməl sütunu var. Biri azərbaycançılıq, digəri isə öz etnik kimliyimiz olan türklüyə vurğudur. Sözügedən hərəkat isə bunları nəzərə alaraq, millətimizi maarifləndirir".**

*Bunu "Şərq"ə açıqlamasında Türkiyədə yaşayan Güney Azərbaycanlı siyasi şərhçi Məhsa Mehdili İranın güneyli soydaşlarımıza qarşı təzyiq və təqiblərinə münasibət bildirərkən deyib:*

Onun sözlərinə görə, İran molla rejiminin güney azərbaycanlılara təzyiqləri uzun illərdir, davam edir:

"İctimai-mədəni sahədə fəaliyyət göstərdiyi üçün 10 illərlə həbs edilən və sürgünə göndərilən soydaşlarımız var. Vətən müharibəsinin ardından, Quzey Azərbaycan bölgədə üstünlük qazanmağa başladı. Bu üstünlüyün ardından isə İranın güneylilərə qarşı təzyiqləri çoxaldı. 44 günlük şavaş dönəmində 400-dən çox güneyli soydaşımız həbs edildi və işgəncələrə məruz qaldı.

Onların məhkəmələri hələ də davam edir. Yəni İran Azərbaycanın yüksəlməsinin cəzasını güney azərbaycanlılara kəsir. Amma bu vətən anlayışını bizlərdə daha da gücləndirərək, Güney Azərbaycan milli hərəkatı üçün yeni bir dönüş nöqtəsi oldu. Digər tərəfdən İran fars rejiminin təzyiqləri hələ də davam edir. Onlar bölgədəki məğlubiyyətinin və yanlış siyasətinin acısını güneylilərdən çıxır".

**Analitik qeyd edib ki, Güney və Quzey Azərbaycan xəritədə ayrı olsa da, siyasi prosesləri biri-birindən ayrı olmayıb:** "2-ci Qarabağ müharibəsində güneylilər gecə-gündüz fəaliyyətdə olaraq, küçələrə axışmışdı. Yəni biz heç bir zaman ayrı olmamışıq. Bu səbəblə də Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların ata ocağıdır. Bunu bütün dünya bilir.

Cənab İlham Əliyevin son çıxışları isə təqdirəlayiq haldır. Doğrudur, bəzən deyirlər ki, bu çıxış niyə indi olub, daha əvvəl olmalı idi. Lakin mən heç də belə düşünmürəm. Azərbaycan rəhbərinin Güney məsələsini rəsmi görüşlərdə dilə gətirməsi bizim üçün böyük qazanc və tarix boyu apardığımız milli mübarizəmizin bir səmərəsidir. Bir tərəfdə Qarabağ savaşından sonra yüksələn bir Azərbaycan, digər tərəfdə isə iflas etmiş bir rejim olan İran var.

Düzdür, Azərbaycanın gücü yüksəldikcə düşmənlər də artacaq. Ancaq biz bu düşmənlərə qalib gəlmək iqtidarındayıq. Çünki Prezident İlham Əliyevin çıxışı Güney Azərbaycan üçün yeni bir ruh oldu".

**Nihat Müzəffər**

**Gürcüstanda İsrail vətəndaşının xaricdən sifariş edilən qətlinin qarşısı alınıb. Bu barədə Gürcüstanın Dövlət Təhlükəsizlik Xidməti (DTX) məlumat yayıb. Qətlin İran vətəndaşı tərəfindən sifariş edildiyi bildirilir.**



Məlumata görə, sui-qəsdi üçüncü ölkə vasitəsilə Gürcüstana gələn, "gizli rabitə vasitələri ilə təmin edilmiş" və obyektdə casusluq edən Pakistan vətəndaşı həyata keçirməli olub.

Bildirilir ki, silahların çatdırılması Gürcüstan, İran ikili vətəndaşlığı olan və Gürcüstan ərazisində daimi yaşayan bir qrup şəxs tərəfindən həyata keçirilib. Silahların ötürülməsi üçün gizli yerlərdən istifadə olunub. Silahların daşınmasını həyata keçirən qrup ilə muzdlu qatil arasında birbaşa təmas olmayıb. Koordinasiya ölkə xaricindən həyata keçirilib.

# Regionda vəziyyət getdikcə gərginləşir

## İranın əməllərini qonşu dövlətlər izləməlidir

DTX bir neçə nəfərin saxlanıldığını, odlu silah, döyüş sursatı və məlumat daşıyıcılarının müsadirə edildiyini açıqlayıb. Digər təfərrüatlar barədə məlumat verilmir.

**İranın Azərbaycan və Gürcüstandakı siyasi boşluqdan istifadə edərək, regionda şəbəkələşdiyini deyən ictimai-siyasi xadim Zəlimxan Məmmədli "Şərq"ə deyib ki, onların hətta radikal terror təşkilatlarını yaratmaları barəsində məlumatlar var:** "İndiki zamanda isə regiondakı vəziyyət gərginləşir və mövqelərin aydınlaşması prosesi gedir. Burada Azərbaycan Rusiyanın təsir dairəsindən çıxaraq dünyaya inteqrasiya edir. O cümlədən Gürcüstan da bu istiqamətdə getmək niyyətindədir.

Bu isə Kremlin və onun dostları olan İranın, Ermənistanın, Fransanın maraqlarına uyğun deyil. Cənub qonşumuz isə ətrafında olan dövlətlərin dünyaya inteqrasiyasından narahat olur və həmin dövlətlərin daxilində öz şəbəkəsini işə salmağa çalışır.

Gürcüstanda baş verənlər də konkret olaraq bununla bağlıdır. Ümumiyyətlə isə rəsmi Tehran bundan sonra daha fəal olacaq. Onun yaratdığı şəbəkələr isə həm Azərbaycanda, həm də Gürcüstanda destruktiv fəaliyyətini davam etdirməyə çalışacaq.

Bu baxımdan da müvafiq qurumlar buna həssas yanaşmalı və İranın əməllərini yaxından izləyərək, önləyici tədbirlər həyata keçirməlidir".

**Nihat Müzəffər**



# "Rusiyanın tam zəifləməsini gözləməliyik"

## Abutalıb Səmədov: "Türkiyənin və ABŞ-ın bölgəyə daha çox nüfuz etməsini gözləməyimizə ciddi ehtiyac var"

**"Tariximizin çox mühüm mərhələlərindən olan üçtərəfli bəyanatın imzalanmasından iki il keçdi. Azərbaycan prezidentinin dəfələrlə qeyd etdiyi kimi 9 noyabr 2020-ci il tarixli Bəyanat təkcə atəşkəs sazişi sayıla bilməz. Çünki həmin sənəddə 3 rayonun təhvil verilməsi, erməni silahlılarının çıxarılması, kommunikasiyaların açılması və s. kimi xeyli mühüm məsələlər də öz əksini tapıb".**

Bunu "Şərq"ə açıqlamasında Azərbaycan Alyans Partiyasının sədri Abutalıb Səmədov 9 noyabr sülh sazişinin müddəalarının yerinə yetirilməməsindən danışarkən deyib.

O bildirib ki, bununla belə imzalanan bəyanat sülh sazişi də deyil: "Çünki sənəddə öz əksini tapmayan xeyli sayda məsələ mövcuddur. Məhz bu səbəbdən bəyanatın imzalanmasından dərhal sonra Azərbaycan rəhbərliyi sülh sazişinin imzalanması təklifi ilə çıxış edib. Bu istiqamətdə ardıcıl işləmək qərarlılığını ortaya qoyub. Çox təəssüf ki, Prezident İlham Əliyevin göstərdiyi konstruktiv yanaşma erməni tərəfinin "səyləri" nəticəsində hələlik istənilən nəticəni verməyib. Ancaq bütün maneələrə baxmayaraq bu istiqamətdə ciddi irəliləyişin əldə olunduğunu hamı etiraf edir. Ən əsası Azərbaycan Prezidentinin tutduğu qətiyyətli mövqe danışıqlar prosesini əvvəlcə ATƏT-in Minsk qrupunun, sonra isə Rusiyanın inhisarından çıxarmağa imkan verib və bu, son illərin ən mühüm hadisələrindən sayılmalıdır".

Partiya rəhbəri qeyd edib ki, bu gün ABŞ sülh danışıqlarını təşkil etmək üçün həm təklikdə heç vaxt olmadığı qədər yüksək fəallıq nümayiş etdirir, həm də Avropa İttifaqının apardığı prosesə açıq dəstəyini göstərir: "Rusiya prezidentinin Valday forumunda və Soçi görüşündə səsləndirdiyi təxribatçı bəyanatlardan sonra "böyük qonşu"muzun "oyundan kənar" vəziyyətdə qalmaq üzrə olduğu göz qabağındadır. Bu şəraitdə yaxın gələcəkdə Vaşinqton və Aİ formatlarının birləşəcəyi və danışıqların Aİ-nin rəhbərlərindən olan Şarl Mişelin vasitəçiliyi altında davam edəcəyi tamamilə realdır. Bəyanatda nəzərdə tutulan bir neçə mühüm müddəa icra olunsa da erməni silahlıları hələ də ərazimizdən çıxarılmayıb. Bu barədə dəfələrlə səsləndirdiyimiz tələblərə cavab olaraq Paşinyan "and-aman" eləyib ki, qonşu dövlətin hərbçiləri imzalanan 9 Noyabr sənədinə uyğun olaraq çıxarılıblar və Azərbaycan ərazisində bir nəfər də Ermənistan əsgəri qalmayıb. Bölgədə mövcud olan "Qarabağ ordusu"nun tərksilah olunması barədə isə bəyanatda heç bir tələb yoxdur. Bu iddialar bir daha göstərir ki, ermənilərlə sənəd imzalayarkən son dərəcə diqqətli olmalıyıq, elə etməliyik ki, hər hansı "sərbəst yozuma" meydan verilməsin".

Partiya sədrinin sözlərinə görə, köçkünlərin öz yerlərinə qaytarılması barədə bəyanatda yer alan müddəanın icra olunmamasının günahı bizim üzərimizə atılır: "Ermənilər iddia edirlər ki, bu bənd Azərbaycan tərəfinin təqsiri ucbatından icra olunmayıb və guya biz BMT-nin Qaçqınlar üzrə Komissarlığını bölgəyə buraxmırıq. Bütün bu böhtanlara meydan verməmək, erməni yalanlarının yayılmasının qarşısını almaq üçün diplomatiya idarəmizin daha aktiv siyasət yeritməsinə, erməni yalanlarını vaxtında ifşa etməsinə ciddi ehtiyac var.

Soçi görüşü açıq şəkildə göstərdi ki, Rusiya nəyin bahasına olursa-olsun uzun müddət öz əsgərlərini bölgədə saxlamağa çalışır və ermənilər də onun bu istəyinə dəstək verirlər. Ancaq Ukrayna müharibəsi bölgədəki reallıqları ciddi şəkildə dəyişdirib və əvvəlki gücündə olmayan Rusiyanın Azərbaycanın qəti mövqeyinə rəğmən bu istəyini reallaşdırması asan olmayacaq. Amma onu da etiraf etməliyik ki, bölgəmizdə yaranmış durum Azərbaycanın daha kəskin addımlar atmasına, hətta, bəyanatın qüvvədən düşməsini elan etməsinə imkan verəcək səviyyədə dəyişməyib.

Bu səbəbdən çox diqqətli və ehtiyatlı davranmamıza və Rusiyanın bir az da zəifləməsini, Türkiyənin və ABŞ-ın bölgəyə daha çox nüfuz etməsini gözləməyimizə ciddi ehtiyac var".

**Nihat Müzəffər**

# Sabaha gedən yol...

## Ədəbiyyat İnstitutunda "525-ci qəzet"in 30 illik yubileyinə həsr olunmuş tədbir keçirilib






**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "525-ci qəzet"in 30 illik yubileyinə həsr olunmuş "Müstəqillik dövrünün müstəqil mətbuatı: "525-ci qəzet" adlı tədbir keçirilib. Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, AMEA-nın və əhatə etdiyi elmi müəssisə və təşkilatların baş direktorları, əməkdaşları, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin nümayəndələri, Türkiyə və Özbəkistandan qonaqlar, şairlər, eləcə də "525-ci qəzet"in kollektivi və KİV-lər iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti,Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidi Akademiyanın dostu və Azərbaycanın görkəmli ziyalısı adlandırıb və onu Azərbaycan Mətbuat Şurasının sədri seçilməsi münasibətilə təbrik edib. Qeyd edib ki, Rəşad Məcidin bu vəzifəyə seçilməsi geniş mənada Azərbaycan mətbuatının, xüsusilə "525-ci qəzet"in ən böyük nailiyyətlərindən biridir. Onun sözlərinə görə, "525-ci qəzet" müstəqil Azərbaycanın müstəqillik dövrü mətbuatının ən davamlı və uğurlu nümunəsidir.

**Azərbaycanın müstəqilliyini bərpasından sonra ölkəmizdə çox sayda mətbuat nümunələrinin meydana çıxdığını deyən AMEA rəhbəri bildirib ki, ötən illər ərzində onlardan bir çoxu fəaliyyətini dayandırsa da, müstəqilliyimizlə yaşıd olan "525-ci qəzet" öz missiyasını aydın şəkildə yerinə yetirməkdədir:** "525-ci qəzet" müstəqil mətbuat yaratmaq istəyənlər üçün ən böyük nümunədir. Azərbaycanın dövlətçilik, müstəqillik ideyalarını qoruyan, özünəməxsus siması olan çoxprofilli mətbu orqandır. "525-ci qəzet" Azərbaycan cəmiyyətinin maraqlandığı bütün sahələr üzrə, istər ictimai-siyasi, iqtisadi, istərsə də elmi, ədəbi, mədəni, idman və digər istiqamətlərdə məqalə və xəbərləri peşəkarcasına ictimaiyyətə təqdim edir. Həmçinin müəllifləri də genişprofillidir və bir sözlə, "525-ci qəzet" Azərbaycanın müstəqillik dövrü mətbuatının flaqmanıdır".

Akademik İsa Həbibbəyli bildirib ki, "525-ci qəzet" yarandığı gündən Azərbaycan alimləri ilə sıx əməkdaşlıq edir və AMEA-nın son 30 ildəki tarixi ilə qəzetin materiallarını oxumaqla tanış olmaq mümkündür. O qeyd edib ki, "525-ci qəzet" daim Azərbaycan cəmiyyətini, oxucusunu dolğun, qərəzsiz informasiya ilə təmin edib və çoxprofilli olub. Bütün istiqamətlərdə fəaliyyətini peşəkar şəkildə davam etdirməsinin başlıca səbəbi onun baş redaktoru Rəşad Məciddir. Akademikin sözlərinə görə, Rəşad Məcid ictimai-siyasi xadim, görkəmli mətbuat nümayəndəsi və əsl dost kimi özünü sübut edib və Azərbaycan mətbuatı tarixində fərqli jurnalistika məktəbi yaradıb: "525-ci qəzet" həftədə bir dəfə feysbuk sosial şəbəkəsindən seçmələri çap edir. Bu, feysbukun qəzet variantıdır. Bir sözlə, Azərbaycan mətbuatında yenilikdir. Rəşad Məcid ədəbi məktəbin sərhədlərini aşaraq müasir, çoxprofilli jurnalistika məktəbi yaradıb. Onun baş redaktoru olduğu "525-ci qəzet" isə sabaha gedən yollara rəhbərlik edən, ictimai fikrin formalaşmasında ön cərgələrdə gedən nümunəvi mətbu orqandır".

AMEA rəhbəri çıxışının sonunda Rəşad Məcidi və qəzetin kollektivini 30 illik yubileyləri münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. AMEA prezidenti üzərində Şuşa qalasının və Xarıbülbülün təsviri olan fotonu "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə hədiyyə edib.

Tədbirdə Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli "Jurnalistikada məktəb yaratmış qəzet: "525-ci qəzet" adlı geniş məruzə edib.

*Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxışında vurğulayıb ki, "Akademiyanın prezidentinin şəxsən iştirakı ilə ilk dəfə bir qəzetin yubileyi qeyd olunur.* Qəzetin kollektivini, Rəşad müəllim başda olmaqla təbrik edirəm. Mən bu qəzeti təhsil naziri vəzifəsində işlədiyim ilk illərdən tanımışam. Qəzetdəki yazılarla tanış olandan sonra bu qəzeti seçdim. Mən bu qəzetin abunəçisiyəm, bütün nömrələrini evimdə saxlayıram".

Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, Avrasiya Yazarlar Birliyinin başqanı, "Qardaş qələmlər" dərgisinin baş redaktoru Yaqub Öməroğlu, Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Nurbay Cabbarov, professorlar Şirindil Alışanlı, Cahangir Məmmədli və Ədəbiyyat İnstitutunun əməkdaşı Ülkər Hüseynova çıxışlarında "525-ci qəzet"in uğurlu fəaliyyətindən müxtəlif nüanslara toxunublar.

**Sonda Milli Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxış edərək tədbirin təşkili üçün böyük ehtiramını, minnətdarlığını bildirib:** "30 il bundan qabaq fəaliyyətə başlayanda 17 noyabr Milli Dirçəliş günü idi. Min nüsxə qəzeti meydanda paylamışdıq və ondan sonra da çox illər bunu xatırlayan insanlar var idi. On illik yubileyimizi Azərbaycanın ictimai fikrini əhatə edən insanlarla keçirmişdik. 1998-ci ilin 29 oktyabrında biz qürur duyuruq ki, o vaxt Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin "Neft bizim üçün məqsəd yox, vəzifə olmalıdır" müsahibəsi ilk dəfə Azərbaycan mətbuatında "525-ci qəzet"də çap olunmuşdu. "525-ci qəzet" həm ədəbiyyat-mədəniyyət hadisələrinə, həm siyasi proseslərə münasibətdə təmkinli mövqeyini qoruyub-saxlayıb.

On illiyimizdən sonra 15 və 20 illiyimizi keçirmədik. 25 illiyi Bakı Dövlət Universitetində keçirdik. Bunun da bir mənası var idi. Bizim əksəriyyətimiz BDU-nun jurnalistika fakültəsini bitirmişdik. İsa müəllim o vaxt da Ədəbiyyat İnstitutunda yubileyimizi keçirdi. Bir neçə ay bundan qabaq İsa müəllim deyirdi ki, yubileyi akademiyada keçirəcəyik. Onda hələ vitse-prezident idi. Bu ərəfədə də xoş bir hadisə baş verdi. İsa müəllim akademiyanın prezidenti oldu və sizin dediyiniz kimi, akademiyanın prezidenti başda olmaqla bir qəzetin yubileyi keçirilir. Buna görə sizə hədsiz minnətdarlığımı bildirirəm. Əməkdaşlarımızdan Yusif Rzayev, Seyfəddin Hüseynli, İsgəndər Həsənov, Aydın Bağırov və digər gənclərimiz buradadırlar.

**Gülnar Səma,**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği:



# 17 noyabr - Milli Dirçəliş Günüdür

### Bu tarix insanlarımızın bir dövlət kimi yaşamaq arzusunun başlanğıcıdır

**Azərbaycanda 17 noyabr - Milli Dirçəliş Gününün növbəti ildönümü qeyd olundu. Bu günün tarixi 1988-ci ilin 17 noyabrında başlayan "Meydan hərəkatı" ilə bağlıdır. 1988-ci il noyabrın 17-də Azadlıq meydanına toplaşan yüz minlərlə insan keçmiş sovetlərin Azərbaycana yönəlik ikili standartlara söykənən siyasətinə etiraz edib. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Qarabağda yaşayan ermənilərin açıq separatçılıq hərəkatı, bu proseslərin Ermənistan və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz yurd-yuvasından qovulması ilə nəticələnməsi Meydan hərəkatının əsasını qoyub.**

Moskvanın və ozamankı yerli hakimiyyət orqanlarının siyasəti nəticəsində meydana çıxan bu problemlərin qarşısını almaq təşəbbüsünü üzərinə götürən xalq 1988-ci il noyabrın 17-də Bakının mərkəzi meydanına toplaşaraq fasiləsiz kütləvi etiraz aksiyasına başlayıb. 17 gün aramsız davam edən, milyonlarla insanın qatıldığı bu aksiya həm də keçmiş SSRİ-də ən irimiqyaslı etiraz aksiyası idi. SSRİ-nin süqutu prosesini araşdıran yerli və xarici tədqiqatçıların böyük əksəriyyəti bu prosesdə Azərbaycanda başlayan prosesin mühüm rol oynadığını qeyd edirlər. Dekabrın 4-dən 5-nə keçən gecə ümumxalq mitinqi sovet qoşunları tərəfindən dağıdılsa da, bu, Azərbaycanın müstəqilliyinin bərpasında mühüm mərhələ kimi tarixə həkk olunub. Milli Dirçəliş Günü Azərbaycanda dövlət səviyyəsində qeyd olunsa da, 2006-cı ilin dekabrında qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərə əsasən iş günü sayılır.

Mənəvi əsaslarını və başlanğıcını 1960-cı illərindən götürən bu tarix sonralar ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter aldı, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoyub. Ötən əsrin axırlarında dünyanın altıda birini əhatə edən Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdı. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi. Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən ümummilli lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu. 1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Birbirini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Sovetinə qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu. Bu yolda ölkəmiz böyük uğurlar əldə etdi, Cənubi Qafqazın lider dövlətinə, beynəlxalq layihələrin təşəbbüskarına çevrildi. Bütün bu nailiyyətlər, nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin möhtəşəm Qələbəsini şərtləndirdi. Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi, ərazi bütövlüyümüz bərpa olundu və haqq-ədalət öz yerini tapdı. Bu gün regionda yeni reallıq yaranıb. Bu reallığı isə beynəlxalq nüfuzu gündən-günə güclənən, Avropanın enerji təchizatında aparıcı aktora çevrilən və dünya dövlətləri üçün etibarlı tərəfdaşa çevrilən Azərbaycan yaradıb.

Deputat Vüqar İskəndərov bildirib ki, Milli Dirçəliş Günü 1988-ci ilin noyabrdekabr aylarında Bakıda baş verən hadisələrdən qaynaqlanır. Onun sözlərinə görə, bu məsələnin kökündə Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı antiAzərbaycan siyasəti durur-du: "Qeyd edim ki, XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəli Azərbaycanda baş verən hadisələri antisovet xalq hərəkatı adlandırmaq olar. Minlərlə insan 17 noyabr tarixində Azadlıq meydanına toplaşıb və uzunmüddətli mitinqlərə başlayırlar. Bu mitinqlər 1988-ci ilin 5 dekabrına qədər davam edir. Təbii ki, Milli Dirçəliş Günü milli azadlıq hərəkatının başlaması və xalqın azadlıq istəyi kimi qiymətləndirilir. Bu gün ölkəmizin istiqlaliyyət qazanmasına təsir edən amillərdən biridir. 17 noyabr mitinqlərinin tələbləri Azərbaycan hökumətinin Ermənistanla iqtisadi əlaqələrin kəsilməsi, Topxanada baş verən hadisələrin bütün şəffaflığı ilə Azərbaycan xalqına televiziya vasitəsilə çatdırılması idi. Ağdam şəhərinə qoyulan qadağanın 24 saat ərzində ləğv edilməsini tələb edən xalqımız həmçinin ozamankı "Dağlıq Qarabağ Muxtar vilayəti"ndə partiya və sovet orqanlarının buraxılmasını tələb edirdi. Çünki ermənilər orada separatçı addımlar atmağa başlamışdı. Bu irəli sürülən təkliflər yerinə yetirilmədiyi müddət ərzində xalqımız mitinqlərin davam edəcəyini bildiriblər. Bu hadisə bir növ xalqın oyanışı idi, xalq azadlıq hərəkatının başlanğıcıdır və insanların sovet hakimiyyətinə qarşı dirənişidir. Həmin illərdə Azərbaycan dünyada tanınırdı, dünyanın nüfuzlu orqanlarında xalq hərəkatı ilə bağlı məqalələr çap olunurdu. Bu onu deməyə əsas verir ki, bu tarix bizim üçün çox əhəmiyyətlidir. İnsanların müstəqil bir dövlət kimi yaşamaq istəməsinin başlanğıcıdır".

**Deputat Bəhruz Məhərrəmov da qeyd edib ki, Milli Dirçəliş ümummilli liderin məhz 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərini çıxarmağa nail olması və üçrəngli bayrağın Naxçıvanda rəsmi bayraq kimi qəbul etməsi ilə başlayıb:** "Bunu belə bilək, çünki artıq tarixi proseslərə münasibətdə romantizmdən realizmə keçməyin vaxtıdır. Milli Dirçəliş Gününü 1992-ci ildən qeyd etsək də, dirçəliş məfhumunun əsl mahiyyətini 2020-ci ilin 8 noyabr tarixində Prezident İlham Əliyev Qələbə nitqində "Şuşa, biz səni dirçəldəcəyik" deyəndə, biz xalq olaraq bu sözün tam fəlsəfəsinə vardıq: "Bu gün, postmüharibə dövründə isə biz hədəfə doğru inamla, qətiyyətlə irəliləməklə sözün əsl mənasında dirçəlirik. Elə dünən təsdiq edilən "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramı" bu dirçəlişdə bizim nə qədər qərarlı olduğumuzu, qətiyyətlə irəlilədiyimizi dünyaya göstərməkdədir. Bizim yalnız Qarabağ və Şərqi Zəngəzurda həyata keçirəcəyimiz bu proqram bütövlükdə bir çox dünya dövlətlərində həyata keçirilən ölkə miqyaslı proqramlardan daha əhatəlidir".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycan diplomatik hücumlarını artırmalıdır

### Əks halda Fransanın addımları Avropada trend halını ala bilər



***"Sanksiya bizə xüsusi bir zərər vurmayacaq. Çünki Azərbaycanın əməkdaşlıq etdiyi ölkələr arasında Fransa heç ilk 20-likdə belə yoxdur"***

**16 noyabr 2022-ci il tarixində Fransanın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Jülyen Lö Lan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Ona 15 noyabr 2022-ci il tarixində Fransa Senatında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamə ilə bağlı XİN-in etiraz notası təqdim edilib.**

Görüş zamanı Fransa Senatında qəbul edilmiş qətnamənin tamamilə həqiqətdən uzaq, yalan və iftira dolu müddəaların əks olunduğu qətnamənin Azərbaycan tərəfindən qətiyyətlə rədd edildiyi diqqətə çatdırılıb. Qətnamənin açıq təxribat xarakteri daşıdığı və sülh prosesinə öz töhfəsini vermək iddiasında olan Fransanın növbəti dəfə ermənipərəst, qərəzli və birtərəfli mövqeyini bariz şəkildə nümayiş etdirdiyi bildirilib.

Fransanın bu addımının regionda sülhün bərqərar olmasına, xüsusilə də ölkəmizin israrlı olduğu Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında normallaşmasına ciddi zərbə vurmaq məqsədi daşıdığı, bölgədə sülhə qarşı olan revanşist qüvvələri həvəsləndirdiyi vurğulanıb.

Azərbaycan tərəfi görüşdə Fransa tərəfindən bir daha Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, onun daxili işlərinə müdaxilə olan addım və bəyanatlardan çəkinilməsini təkidlə tələb edib. Fransanın müvəqqəti işlər vəkili Azərbaycan tərəfinin müraciətini aidiyyəti üzrə çatdıracağını bildirib.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Turab Rzayev "Şərq" bildirib ki, Azərbaycan diplomatik cəhətdən lazım olan bütün addımları atmalıdır:** "Əks halda bu, Avropada trend halını ala bilər və Fransanın təsiri altında olan İspaniya, İsveçrə, Belçika, Lüksemburq kimi digər ölkələr də analoji qərarlar verə bilərlər. Ona görə də biz bunun qarşısını almaq üçün var gücümüzlə mübarizə aparmalıyıq. Azərbaycan XİN-i tərəfindən görülən işlər isə tamamilə doğrudur. Bundan sonra bu sayaq gedişlərə daha da çox ehtiyac var. Sanksiya isə bizə xüsusi bir zərər vurmayacaq. Çünki Azərbaycanın əməkdaşlıq etdiyi ölkələr arasında Fransa heç ilk 20-likdə belə yoxdur. Biz onlarla cəmi 4 sahədə əməkdaşlıq edirik. Bunlar nüvə texnologiyası, aerokosmik sənaye, hərbi və enerji sektorlarıdır. Bunların hər birində isə bizim başqa alternativlərimiz də var. Xüsusilə enerji sektorunda onlar, "Abşeron" yatağının 50 faiz pay sahibidir ki, hazırda qaz dünyada ən çox qiyməti qalxan təbii sərvətlərdən biridir. Avropa rəhbərliyinin bizə müraciət edərək qaz almaq istədiyi və Rusiyadan gələn neft-qaz hasilatına sanksiyaların qoyulduğu bir vaxtda, Avropada heç bir ölkənin bizim neft və qazımızdan imtina edəcəyini düşünmürəm. Xüsusilə Azərbaycanın tərəfdaşı olan İtaliya və Balkan ölkələri bizimlə ticari əlaqələri davam etdirəcək. Albaniya, Yunanıstan, Xorvatiya, Bolqarıstan, Serbiya Azərbaycandan əlavə qaz tələb edirlər. Ona görə də İtaliya və Balkan ölkələri bunun bütün Avropaya təbliğinə imkan verməyəcək və qarşısını alacaqlar. Amma biz də bir yerdə dayanmayaraq, bunun qarşısını almaq üçün əlimizdən gələni etməliyik".

**Nihat Müzəffər**



# Polşaya düşən ATƏŞ

### Varşava Rusiyanı zəifləmtməyə çalışacaq

**"Polşa-Rusiya münasibətlərinə tək bu gün etibarilə baxmamalıyıq. Bildiyimiz kimi, Polşa 2-ci Dünya müharibəsi zamanı parçalanıb".**

Bunu "Şərq"ə siyasi şərhçi Həşim Səhrablı Polşanın Rusiyaya nota verməsi barədə danışarkən deyib. O bildirib ki, Polşa və Rusiyanın biri-birinə qarşı tarixi düşmənçiliyi hər müstəvidə ölkələr arasında gərginliyə səbəb olur: "Son vaxtlar isə rəsmi Moskvanın tarixən davam edən şərqi Avropanı işğal etmək siyasətinin alovlanması artıq Polşada da səbirləri son həddə çatdırıb. Ona görə də rəsmi Varşava indi anti-Rusiya addımlarını daha da gücləndirməyə məcburdur. Bunu Polşaya raket düşməmişdən əvvəl də görürdük. Rəsmi Varşava israrla Ukraynanın müdafiəsi üçün dünyada təbliğat aparır. Özü də əlindən gələn qədər dəstək verir. İndi oraya düşən raketlər Rusiyadan yox, Ukraynadan atılıb. Amma hazırda başqa bir bəhanə və səbəblər göstərirlər. Deyirlər ki, Rusiya əməliyyatları aparmasa idi, Ukrayna heç o silahları aktiv etmək məcburiyyətində qalmazdı. Polşa öz siyasətini anti-Rusiya prizmasından davam etdirir. Bundan sonra da iki ölkə arasındakı münasibətlər elə məlum səviyyədə davam edəcək. Rəsmi Varşava hər vəziyyətdə Rusiyanı maksimum dərəcədə zəifləmtməyə çalışacaq. Hətta bacarsa, onun bölgədəki hakim təsirini birdəfəlik məhv edər. Çünki yaxşı bilirlər ki, Rusiyanı bir müddətlik gücdən salmaq heç də onların bütün milli maraqlarını təmin etmir. Rusiyada şovinist ideyalar heç vaxt aradan qalxmır. Buna görə də rəsmi Moskva Polşa üçün milli kimlik və təhlükəsizlik məsələsidir. Polşa ərazisinə raket düşməsi də bir bəhanə kimi istifadə olunacaq. Bu da Rusiya əleyhinə kampaniyaların genişləndirilməsinə səbəb yaradacaq".

*Qeyd edək ki, Polşa Rusiyaya nota verib. Bu barədə nazirliyin mətbuat katibi Lukaş Jasina məlumat yayıb. O diqqətə çatdırıb ki, Rusiyanın Polşadakı səfiri Sergey Andreyevə vəziyyəti və məsələyə rəsmi Varşavanın münasibətini təsvir edən diplomatik nota təqdim edilib.*

**Sucayət**

# Bütün istilik qazanxanaları işə salınıb

### 50-yə yaxın zirzəmidə istiliklə bağlı bəzi avadanlıqlar oğurlanıb ki, bu da istiliyin verilməsində problemlər yaradır



**Paytaxtda noyabrın 15-i istilik mövsümü hesab edilir, lakin bir çox yaşayış binalarının istiliklə təminatında problem yaşanır.**

Bakının Xətai rayonu, Məhəmməd Hadi küçəsindəki 77, 87, 89, 91-93 ünvanlarında yerləşən binalara istiliyin verilməməsi ilə bağlı məlumat yayılıb. Bu barədə "Xezer-xeber.az" məlumat verib. Bildirir ki, istilik mövsümünə rəsmi olaraq başlansa da, bəzi binaların sakinləri istiliyin üzünə həsrət qalıb. Sakinlərin sözlərinə görə, məsələ ilə bağlı aidiyyəti qurumlara müraciət ediblər, amma şikayətləri cavabsız qalıb. Havaların qeyri-sabit keçməsi isə soyuq evlərin sakinlərinin vəziyyətini bir az da çətinləşdirib. Bənzər mənzərə Xətai rayonu Telnov 3, Yasamal rayonu, Yeni Yasamal 1, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elman Qasımov 15 q ünvanlarında da yaşanır.

Məsələ ilə bağlı "Azəristiliktəchizat"ın rəsmisi Elvin Basqallı "Xəzər Xəbər"ə bildirib ki, bütün qazanxanalar qrafik üzrə işə salınıb. Bəzi yerlərdə rejim tənzimləmələrinə görə müəyyən problemlər var və bunların hamısı da bir-bir aradan qaldırılır. Daxil olan müraciətlər əsasında işlər görülür. Bununla bərabər hazırda 50-yə yaxın zirzəmidə istiliklə bağlı bəzi avadanlıqlar oğurlanıb ki, bu da istiliyin verilməsində problemlər yaradır. Hazırda bununla bağlı aidiyyəti üzrə müraciət olunub.

Yaranmış problemlə bağlı "Azəristiliktəchizat" ASC ilə dünən təkrar əlaqə saxladıq. Qurumun mətbuat katibi Elvin Basqallı "Şərq"ə açıqlamasında qeyd etdi ki, adıçəkilən ünvanlardakı binaların istiliklə təmin edilməsi istiqamətində hazırda işlər davam etdirilir. Xətai rayonu, Telnov küçəsi 3, Yeni Yasamal 1 və Hövsan qəsəbəsi, Elman Qasımov 15 q. ünvanlarında istiliyin verilməsi bərpa edilib. Digər ünvanlarda da günün sonunadək problemin həll olunacağı gözlənilir.

**Məlahət Rzayeva**

# Dərman vasitələri ilə bağlı dövlət proqramı hazırlanır

## Bu proqram qəbul ediləndən sonra dərman vasitələri ilə bağlı problem aradan qalxacaq



**Növbəti ildən bioloji aktiv maddələr qida əlavələrini həkimlərin təyin etməsi qadağan ediləcək**

**Azərbaycanda dərman vasitələri ilə bağlı xüsusi dövlət proqramı hazırlanır. Bunu Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin plenar iclasında büdcə müzakirələri zamanı deyib. Ə.Əmiraslanov bildirib ki, bu gün əhali arasında dərman vasitələri ilə bağlı xeyli narazılıq var: "Bunun da həllinə nail olmaq lazımdır.**

Məndə olan məlumata görə, dərman vasitələri ilə bağlı hökumət tərəfindən ciddi proqram hazırlanır. Əminəm ki, bu proqram qəbul ediləndən sonra dərman vasitələri ilə bağlı problem aradan qalxacaq. Belə sənədlərin hazırlanması zamanı Milli Məclisdə olan mütəxəssis deputatları da bu sahəyə cəlb etmək lazımdır. Bunun da proqramın effektivliyinə xeyri olar".

**Terapevt-hepatoloq, Rusiya Təbiətşünaslıq Akademiyasının tibb üzrə məsləhətçisi, Türkiyə Qaraciyər Araşdırma Dərnəyinin üzvü Sevindik Arazov "Şərq"ə açıqlamasında dərman vasitələri ilə bağlı hökumət tərəfindən xüsusi proqram hazırlanmasının bu sahədəki problemlərin həllinə yardım edəcəyini dedi:**

- Qiymət siyasəti ilə bağlı bir söz deyə bilmərəm, lakin dərman preparatlarının ölkəyə gətirilməsi və satışının təşkilinə ciddi nəzarət olmalıdır. Ölkəyə gətirilən hər bir dərman preparatı Səhiyyə Nazirliyinin müvafiq orqanı tərəfindən yoxlamadan keçirilir, xüsusi cihazlar, avadanlıqlar vasitəsilə yoxlanır, sonra satışına icazə verilir. Bu proses bəzən 3-6 ay çəkə bilir. Dərman vasitəsinin tətbiqi, istifadə qaydaları Azərbaycan dilinə tərcümə olunur, içliklə birlikdə satışa çıxarılır. Çox nadir hallarda siz Azərbaycan dilində tərcüməsi verilməmiş içlikli dərman vasitəsi görə bilərsiniz. Son zamanlar buna ciddi əhəmiyyət verilir. Hesab edirəm ki, hazırlanan hökumət proqramında dərman vasitələrinin yoxlanılması üçün avadanlıqların təkmilləşməsinə ehtiyac olduğu əksini tapmalıdır və bunun üçün də SN-in müvafiq orqanı lazımi cihazlar və avadanlıqlarla təchiz edilməlidir. Bu, çox vacib məsələdir. Elə mükəmməl avadanlıqlar olmalıdır ki, dərman vasitəsinin tərkibinin içlikdə və ya qutunun üzərində yazılanla uyğunluğunu dəqiq yoxlaya bilsin.

*Doktor son zamanlar bəzi dərman vasitələrinin, hətta adi yod məhlulunun da qıtlığını əhalinin maariflənmə səviyyəsinin aşağı olmasıyla izah etdi:*

- Əhali həkim məsləhətindən daha çox aptekdə işləyən "Xalidə"yə, qonşudakı "Gülsənəm nənə"yə inanır. Kimsə deyir ki, yod hansısa xəstəliyin müalicəsində istifadə edilir, əhali cumur apteklərə yod məhlulu almağa. Qonşu deyir ki, "Nimesil"lə "Teraflyu"nu qarışdırıb iç, xəstəliyin "xırp" kəsəcək. Amma aptekçi "Xalidə", "Gülsənəm nənə" bu iki qarışığın qara ciyəri necə dağıtdığından xəbərsizdi. Sivil ölkələrdə kimsə gedib özbaşına aptekdən dərman almır. Dərman vasitəsini həkim təyin edir. Siz qardaş Türkiyədə aptekə gedib baş ağrısı dərmanı ala bilməzsiniz. Onu sizə satmayacaqlar, həkim resepti tələb edəcəklər. Bizdə isə vəziyyət belədir: aptekdə işləyənlər hətta həkimin yazdığı reseptə də "qulp" qoyurlar, başqa bir dərmanı məsləhət görürlər. "Bu, ondan yaxşıdı". Son zamanlar mən də eşidirəm ki, əhali dərmanların keyfiyyətindən narazıdır. Deyirlər, "əvvəllər "Nimesil" içirdik, baş ağrısı tez kəsirdi, indi təsir etmir, dərmanın tərkibini dəyişiblər!". Hansısa dərman vasitəsinin tərkibinin dəyişdirilməsi birbaşa cinayətdir. Buna kimsə cürət etməz. Dərman vasitəsi getdikcə təsirini ona görə itirir, çünki bu dərmanı orqanizm artıq tanıyır və ona gərəkən reaksiyanı verə bilmir artıq. Orqanizm o dərman vasitəsinə bir növ alışıqlı olur. Cəhaləti əhalinin özü yayır.

**S.Arazov qeyd etdi ki, növbəti ildən bioloji aktiv maddələr - qida əlavələrini həkimlərin təyin etməsi qadağan ediləcək:**

- Bu, çox gözəl iş olacaq. Avropada bioloji aktiv maddələr marketlərdə satılır, apteklərdə deyil. Onlar dərman preparatı deyillər. Növbəti ildən biz həkimlər bu bioloji aktiv maddələrdən - qida əlavələrindən azad ediləcəyik. Həkimlərə bu qeyri-dərmanları reseptlə təyin etməyə icazə verilməyəcək. Pasiyentin müalicəsi yalnız dərman preparatları ilə aparılmalıdır.

**Məlahət Rzayeva**

# Pensiya yaşının azaldılması təklif olunur

**Natiq Cəfərli:** "İllər əvvəl pensiya yaşının artırılması ilə bağlı verilən qərar yanlış idi"

**Əhməd Qəşəmoğlu:** "Get-gedə hər ölkədə yaşlı adamların sayı artır. Bu onunla bağlıdır ki, əhali artımı bütün ölkələr üzrə aşağıdır və uşaqlar az doğulur"

**Azərbaycanda pensiya yaşının azaldılması yenidən gündəmə gəlib.**

Milli Məclisin ötən gün keçirilən plenar iclasında parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev pensiyalarla bağlı məsələ qaldırıb.

Hökumətin hara, nə qədər pul xərcləyəcəyini əvvəlcədən proqnozlaşdıra bilmədiyinə diqqət çəkən millət vəkili deyib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı Prezident İlham Əliyev təsdiq edib: "Amma büdcədə bu işlərə nə qədər vəsait xərclənəcəyi açıqlanmır. Biz büdcənin gəlirlərini artırmaq barədə düşünməliyik. Bizdə iqtisadiyyatın əsas sahələri dövlətin nəzarətində olsa da, büdcəyə dövlət şirkətləri tərəfindən ödənilən vergilər çox azdır. Özəlləşdirmə sürətləndirilməlidir".

Deputat qeyd edib ki, 65 yaşa qədər olan kişilərin sayı 47 faizə çatır: "Ona görə biz pensiya yaşının aşağı salınması barədə düşünməliyik. Heç olmasa, bu kişilər 2-3 il pensiya ala bilsinlər. Digər tərəfdən, Vergi Məcəlləsinə vergi güzəştləri ilə bağlı dəyişikliklərə baxıram, burada uşaq geyimləri, uşaq yeməkləri yoxdur. Elektromobildənsə biz bunlara vergi güzəştləri tətbiq etməliyik".

**İqtisadçı-ekspert Natiq Cəfərli də Azərbaycanda pensiya yaşının azaldılmasının tərəfdarı olduğunu deyib.** Aidiyyəti qurumlar pensiya yaşının artırılması ilə bağlı beynəlxalq təcrübənin əsas götürüldüyünü iddia edib, Avropadakı təqaüd yaşının artırılması ilə bağlı tendensiyanın Azərbaycanda da tətbiqinin vacibliyini önə çəkirlər. Ekspert isə hesab edir ki, Avropa ölkələrində əhalinin doğum sayı, qocalma səviyyəsi, orta yaşı nəzərə alınaraq təqaüd yaşı artırılır: "Azərbaycanda isə orta yaş səviyyəsi normaldır, yəni ölkəmizdə hələ ki demoqrafik problem yaşanmır. Bu baxımdan illər əvvəl pensiya yaşının artırılması ilə bağlı verilən qərar yanlış idi. Avropada təqaüd yaşının artırılması ciddi etirazlarla qarşılansa da, Azərbaycanda reaksiyalar fərqli oldu. Bu da yaşlı işçilərin pensiyaya çıxmaq istəməməsi ilə əlaqədardır. Azərbaycanda bir çox sahələrdə işləyənlər təqaüdə çıxmağı özləri istəmir. Bunun səbəbi təqaüd miqdarının aşağı olması, maaşın isə daha yüksək olması və işləyərkən əlavə fürsətlərin yaranmasıdır. Bu da ondan qaynaqlanır ki, bizdə muzdla çalışanların böyük əksəriyyəti dövlət sektorundadır.

Məsələn, müəllimlər təqaüdə çıxmaq istəmirlər. Çünki onların maaşları yüksəkdir, işlədikləri zaman əlavə olaraq uşaq hazırlayırlar, həm də müxtəlif bayramlarda hədiyyələr alırlar. Bütün bunlar Azərbaycanda başqa cür tipik xüsusiyyətlər yaradır. Digər ölkələrdə insanlar təqaüdə çıxmaq uğrunda etiraz edirsə, Azərbaycanda əhalinin böyük bir qismi təqaüdə çıxmaqda maraqlı deyil. Bunu da nəzərə almaq lazımdır. Ancaq ümumilikdə götürdükdə pensiyaların əvvəlki yaş səviyyəsinə qaytarılması doğru qərar olardı".



**Professor, sosioloq Əhməd Qəşəmoğlu isə "Şərq"ə açıqlamasında digər ölkələrlə müqayisədə Azərbaycanda pensiya yaşının yuxarı olduğunu deyib:** "Get-gedə hər ölkədə yaşlı adamların sayı artır. Bu onunla bağlıdır ki, əhali artımı bütün ölkələr üzrə aşağıdır və uşaqlar az doğulur. Nəticədə ölkədə işləyən gənclərin sayı azalır. Deməli, vergi ödəyicilərinin də sayı az olur. O biri tərəfdən istehsalat sahələri, zavodlar, fabriklər, yəni əhalinin işləyib qazanc əldə edə biləcəyi, həmin qazancdan vergi verə biləcəyi yerlər azalır.

Bütün bunlar dövlət büdcəsinə mənfi təsir göstərir. Ölkədə gənc əhali və iş yerləri çox olduqca dövlətin pensiya ödəmək imkanları da çoxalır. Əksinə olanda - iş yerləri azalanda, o biri tərəfdən əhalinin sayı da az olanda vergi ödəyiciləri az olur və dövlət iqtisadi amilin təsiri altında pensiya yaşını qaldırmaq məcburiyyətində qalır. Bunun qarşısını almaq artıq heç kəsin iradəsi çərçivəsində deyil, bu, ölkədəki demoqrafik və iqtisadi vəziyyətə bağlı bir məsələdir. Ölkəmizdə işləmək yaşında olan kifayət qədər adam var. O insanları işlə təmin etmək üçün çoxlu istehsalat müəssisələri açmalı, yeni fəaliyyət sahələri yaratmalı, qeyri-neft sektorunu, kənd təsərrüfatını, xidmət sahələrini, eyni zamanda intellektual güc tələb edən sahələri xeyli inkişaf etdirməliyik".

**Şəymən**

# Qulaqcıqla gəzənlərin həyatı təhlükədədir

## Cihazdan 8 saatdan çox istifadə etmək sağlamlığa ziyandır



(Əvvəli səh: 8-də)

**Görünür buna görədir, Daxili İşlər Nazirliyi sürücülərə xəbərdarlıq edib ki, yüksək musiqi sədaları altında maşın idarə edən sürücülər böyük məbləğdə - 150 manatdan 2 min 500 manatadək məbləğdə cərimə oluna bilər.**

DİN-in mətbuat xidmətindən bildirilib ki, mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai yerlərdə gecə vaxtı saat 24-dən 7-dək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini ucadan ifa etməyə, televizorları, radioqəbulediciləri, maqnitofonları və digər aparatları gur səslə oxutmağa, məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsulla pozmağa görə fiziki şəxslərə yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslərə iki min manatdan iki min beş yüz manatadək məbləğdə inzibati tənbeh tədbiri tədbiq edilir. Başqalarını narahat etmək öz yerində, amma qulaqcıqla yüksək səsdə musiqi dinləmək, ilk növbədə həmin insanların özünə ziyandır. Bu, birbaşa karlığa aparan yoldur.

***Həkim: "Zaman keçdikcə problemlər ortaya çıxır və bunu bildiyiniz vaxt isə hər şey çox gec ola bilər. Uğultu və cingilti xəstəliyin ilkin əlamətlərindəndir"***

**Bu barədə açıqlama verən qulaq, burun, boğaz həkimi Cavid İsmayılov bildirdi ki, qulaqcıqda musiqi dinləyənlər diqqətli olmalıdır:**

- Silah səsi, ya da bir partlayış nəticəsində ani və qısa müddətli şiddətli səslərdə olduğu kimi, yüksək səslərə də uzun müddətli məruz qalmaq qalıcı eşitmə itkisinə - karlığa yol açır. Yüksək səsdən sonra qulaqda qalan uğultu, cingilti eşitmə sinirində hüceyrələrin zədə gördüyünə bir işarədir. Həmçinin qulaqcıq taxaraq, yüksək səslə musiqi dinlənən bu cihazlar erkən yaşlarda eşitmə itkisi üçün bir risk faktorudur. Səssiz bir otaqda qulaqcıq ilə musiqi dinlənərkən səs şiddəti əsasən normal qəbul edilə bilən bir səviyyədə - təxminən 70 destibel (db) olmalıdır. Müqayisə üçün deyim ki, insan danışığı təxminən 40 db, küçə səsləri təxminən 70 db şiddətindədir. Ancaq səs-küylü bir mühitdə ətrafdakı səsləri basdırmaq üçün musiqinin səsi artırıldıqda dinləyicinin qulaqları üçün təhlükə yaranır. Araşdırmalar göstərir ki, 85 db şiddətindəki səslərə 8 saatdan çox məruz qalmaq olmaz. Bu müddətlər 88 db üçün 4 saat, 91 db üçün 2 saat və 100 db üçün 15 dəqiqədir. Səs şiddəti artdıqca dinləmə müddəti azalmalıdır. Qeyd edim ki, musiqi dinləmə cihazlarının səs şiddəti 125 db-ə qədər yüksələ bilir. Bundan əlavə istifadəçilərin dörddə birində yüksək səsdə dinlənən musiqi sonrası eşitmələrində keçici olaraq 5-10 db şiddətində zəiflik müşahidə edilir. Yüksək səsə daimi məruz qalma qulaqda eşitmə sinirində ciddi problemlər yaradır və bu, geri dönüşü olmayan eşitmə zəifliyinə gətirib çıxarır. Odur ki, qulaqcıqdan orta səs səviyyəsində, gündə 1-2 saatdan çox istifadə edilməməlidir.

**Həkim qeyd edib ki, yüksək səs nəticəsində əmələ gələn zədə iç qulaq tipində yavaş-yavaş eşitmə itkisi yaradır:** "Zaman keçdikcə problemlər ortaya çıxır və bunu bildiyiniz vaxt isə hər şey çox gec ola bilər. Uğultu və cingilti xəstəliyin ilkin əlamətlərindəndir. Bir də onu qeyd edim ki, qulaqcıqdan tək tərəfli istifadə də təhlükəlidir. Bəzən qulaqcığın bir tayı hər hansı dosta verilir, bu zaman istər-istəməz səs şiddətini də yüksəltmək məcburiyyətində olurlar və bu da hər ikisinin qulağında ciddi problemlər yaradır".

Həkim eyni zamanda qeyd edib ki, qulaqcıqdan bu cür geniş istifadə etmək həmin şəxslərin psixologiyasına da mənfi təsir göstərir: "Belə insanlar cəmiyyətdən yavaş-yavaş təcrid olunur. Qulaqcıq taxmış insan kənar söhbətləri eşitmir, dinləmir. Yalnız qulaqcıqda olan musiqiyə və ya hansısa bir məlumata qulaq asır. Qulaqcıqlara aşırı aludəçilik, ümumiyyətlə, insanı cəmiyyətə qarşı laqeyd edir. O, ətrafda baş verənlərə etinasızlaşır. Tənhalığa meyllənir. Bu da sosiallaşmanı ləngidən amildir.

**Həkim eyni zamanda qulaqcıqla gəzənlərin həyatının da təhlükə altında olduğunu deyib:**

- Yolu keçərkən siqnal səslərini eşitmirlər, "öz aləmlərində" olduqlarından qarşıdan gələn avtomobili də görmürlər çox zaman. Bu vəziyyətdə həyatlarına real təhlükə yaranır.

**Məlahət Rzayeva**



# Yumurta bahalaşıb

## İstehsalçılar qiyməti artırmaq məcburiyyətindədir

**"Azərbaycanda qiymət artımının sürətlənməsi rəsmi rəqəmlərlə də təsdiqlənib. Ərzaq məhsullarının, o cümlədən yumurtanın qiymətinin bahalaşması təəccüb doğurmur. Hər şey bahalaşırsa, yumurta istehsalçıları da qiyməti artırmaq məcburiyyətindədir".**

Bunu "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Natiq Cəfərli deyib.

Ekspert bildirib ki, xaricdən gətirilən yem, dərman preparatları, vaksinlərin qiymətinin yüksəlməsi maya dəyərinə təsirsiz ötüşmür:

"Kənd yumurtasının da qiymətinin qalxması təbiidir. Əhali qiymətlərin artdığını görür. Qınamaq da olmur. Onların bazara çıxardığı yumurtalar bahalaşmamalıdı deyə bir qayda yoxdur. Xərclər artır, ərzaq məhsullarının qiyməti qalxırsa, kənd yumurtası istehsalçıları bazara çıxardıqları məhsulun dəyərini yüksəldə bilərlər".

*Qeyd edək ki, Azərbaycanda kənd yumurtasının qiyməti artıb. Bəzi marketlərdə yumurtanın qiyməti 40 qəpikə qədər yüksəlib.*

**Aygün Tahir**

# Stressiz gün keçirtmək

## Bitki tərkibli çaydan istifadə etmək lazımdır



**Stres insan orqanizmində yaranan narahatlıq və ya gərginlikdir. Bu hal davamlı olarsa, depressiyaya çevrilə bilər.**

Axşam.az xəbər verir ki, streslə mübarizə aparmağın ən asan yollarından biri bitki tərkibli çaydan istifadə etməkdir.

Lazım olanlar:

50 qr. çobanyastığı çiçəyi
50 qr. melisa
30 qr biyan kökü
20 qr yaşıl çay

Bu bitkiləri qarışdırıb quru şüşə qabda saxlayın. 300 ml qaynar suya 1.5 ç.q əlavə edərək 8 dəqiqə ağzı qapalı olaraq dəmləyin. Hər gecə yatmazdan 2-3 saat əvvəl qəbul edin.

**Elan**

Ədliyyə Nazirliyi Penitensiar Xidmət Konvoy Taborunun əməkdaşı Quliyev Orxan Yaşar oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3275



## İlon Mask şəxsi səhifəsində yazdı

Tviterdə uzun yazılar yazmaq mümkün olacaq

**Tviterdə uzun yazılar yazmaq tezliklə mümkün olacaq.**

Axşam.az xəbər verir ki, bu barədə sosial şəbəkənin sahibi, "Tesla" və "SpaceX" şirkətlərinin qurucusu İlon Mask şəxsi səhifəsində yazıb.

Qeyd edək ki, hazırda bir tvitin maksimum uzunluğu 280 simvoldan ibarətdir. Bundan əvvəl isə bu rəqəm 2 dəfə az idi.

## Macarıstanda yaşıl nömrəli avtomobillərin sayı üçqat artıb



**Dünyada yaşıl nömrəli avtomobillərin sayı artmaqdadır.**

2015-ci ilin sonlarından buraxılan bu nömrələr tamamilə elektrikləşdirilmiş nəqliyyat vasitələri üçün nəzərdə tutulub. Bu nömrələr şəbəkəyə qoşulan başqa - tamamilə və qismən hibrid, akkumulyatordan istifadə etməklə qət oluna biləcək məsafədən asılı olaraq gediş ehtiyatı artırılan avtomobillər arasında seçilmək üçün istifadə olunur.

2020-ci ilin əvvəlindən indiyə qədər Macarıstanda yaşıl nömrəli avtomobillərin sayı üç dəfədən çox artıb.

Azərtac Macarıstan Texnologiyalar və Sənaye Nazirliyinə istinadla xəbər verir ki, bu ölkədə tamamilə elektrikləşdirilmiş və hibrid nəqliyyat vasitələri üçün 60 mindən çox nömrə nişanı buraxılıb.

Yaşıl nömrəli nəqliyyat vasitələrinin yarıdan çoxu tamamilə elektrikləşdirilib.

## Qlobal istiləşmə ilə mübarizə

Quterreş 100 milyard dollar ayırmağa çağırır



**İnkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyi ilə bağlı problemləri həll etmək üçün 100 milyard dollara ehtiyac duyurlar.**

"Report" xəbər verir ki, bunu BMT-nin baş katibi Antoniu Quterreş iqlim konfransının yekun tədbirlərində iştirak etmək üçün Şarm əl-Şeyxə gələrkən jurnalistlərə deyib.

"Konfrans iştirakçıları təcili olaraq maliyyə məsələlərini həll etməlidirlər. Bu, inkişaf etməkdə olan ölkələrin iqlim gündəmini maliyyələşdirmək üçün 100 milyard dollar ayırmaq deməkdir. Bu, möhkəm yol xəritəsini tələb edən maliyyələşdirmənin necə artırılacağının aydınlaşdırılması deməkdir. Həm də çoxtərəfli islahatlar üçün ümumi qərar deməkdir", - Quterreş deyib.

Quterreş əlavə edib ki, o, Paris iqlim konfransının 2030-cu ilə qədər qlobal temperatur artımını 1,5 dərəcə Selsi səviyyəsində məhdudlaşdırmaq məqsədinə nail olmaq niyyətindədir.

## Şakira dünya çempionatında oxumaqdan imtina etdi



**Məşhur kolumbiyalı müğənni Şakira Qətərdə keçiriləcək dünya çempionatının açılış mərasimində çıxış etməyəcək.**

**Qafqazinfo xəbər verir ki, müğənni turnirin başlamasına bir neçə gün qalmış ölkədə insan haqlarının pozulması ilə bağlı Qətərdəki siyasi rejimin tənqidi fonunda mərasimdə çıxış etməkdən imtina edib.**

**Bundan əvvəl bir neçə məşhur turnirdə iştirakdan imtina edib.**

## Conni Deppin qızı kamera qarşısına keçib




**Hollivud ulduzu Conni Depplə keçmiş həyat yoldaşı Vanessa Paradisin qızları Lili Roza "Elle" jurnalının dekabr buraxılışında yer alıb.**

**Axşam.az xəbər verir ki, Lili müsahibəsində bir müddət əvvəl atasının keçmiş xanımı Ember Hörd üzərində qələbə ilə yekunlaşan qalmaqallı məhkəmə işini şərh etmək istəməyib:**

**"Fikirlərimi özümdə saxlamaq hüququm var. Həm də düşünürəm ki, kiməsə cavabdeh deyiləm. Məni həyatımdakı kişilərə - istər ailə üzvlərim olsun, istərsə də sevgilim - onlara görə müəyyən etmək istəyirlər. Mən isə özümün etdiklərimə görə mühakimə olunmağa hazıram".**



# Ayağı sınmış pişik...

## Axsaya-axsaya təcili yardıma gəldi

**Bitlisin Tatvan rayonunda ayağı qırılan və özü axsaya-axsaya xəstəxananın təcili xidmətinə gələn pişiyə səhiyyə işçiləri tərəfindən lazımi müdaxilə edilib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə, Bitlis Tatvan dövlət xəstəxanasının təcili xidmətində baş verib.

Pişiyin təcili yardım otağına qapıdan girməsi təhlükəsizlik kamerasına əks olunub. Kameralarda bir müddət təcili yardım otağında gözləyən pişiyin daha sonra əməliyyat otağına girdiyi görünür.

Səhiyyə işçiləri iş başında olarkən cərrahi müdaxilə otağına sıçrayan pişik az qala kömək istəyəcək kimi davranıb. Pişiyin əziyyət çəkdiyini görən həkim Abuzer Özdemir onun ayağının qırıldığını anlayıb. Ağrıları olan pişiyə ilk tibbi yardımı edən Özdemir, pişiyin ayağına lazımi müdaxilə edərək onu sarıyıb.

Səhiyyə işçiləri tərəfindən "Davşo" adlandırılan sevilən pişik, tibb işçilərinin göstərdiyi şəfqətlə vaxtaşırı təcili yardıma gələrək müalicəsini davam etdirir.

Tibb işçisi Abuzer Özdemir, ayağı qırılan pişiyi müalicə etdiklərini belə ifadə edib: "5 ildir Bitlis Tatvan dövlət xəstəxanasında işləyirəm. Bir anda pişiyin içəri girdiyini gördüm və bu, heyrətləndirici idi. Müayinə üçün götürəndə ayağının sındığını gördüm və ayağını şinlə (orqanları hərəkətsiz saxlamaq üçün istifadə edilən dərman vasitəsi) qoydum. Bir müddət pişiyi

***"Davşo" tibb işçilərinin göstərdiyi şəfqətlə vaxtaşırı təcili yardıma gələrək müalicəsini davam etdirir***

nəzarətdə saxladım. Daha sonra pişik rahatlaşdı və sanki yolu bilirmiş kimi gəldiyi yerdən yenidən bayıra çıxdı".

Pişiyi çox sevdiklərini deyən Özdemir, "Bir pişiyimiz var idi və onu çox sevirdik. Öldü adını bu pişiyə qoyduq. Pişik burada müalicə olunduğundan yanımızda buranı özünə isti bir ev gördü. O, vaxtaşırı bizə gəlməyə başladı, biz də düzəltdiyimiz şinləri açıb, ayağını dönə-dönə sarıyırıq ki, pişik rahat olsun".





**Turan**



# Qulaqcıqla gəzənlərin həyatı təhlükədədir

## Cihazdan 8 saatdan çox istifadə etmək sağlamlığa ziyandır

**Qulaqcıqlar yeniyetmələrdə eşitmə itkisi riskini artırır. Ümumdünya Səhiyyə Təşkilatı bununla bağlı araşdırma hazırlayıb. Hazırlanan araşdırmada ingilis, ispan, fransız və rus dillərində nəşr olunan 33 fərqli araşdırma təhlil edilib. 20 ildən çox davam edən araşdırmalarda alimlər 19 mindən çox 12-34 yaşlı iştirakçıların məlumatlarını təhlil edib.**

Tədqiqat iştirakçılarının 24 faizinin qulaqlıqlarla musiqi dinləyərkən son dərəcə yüksək səs səviyyəsinə üstünlük verdiyi də qeyd edilib. Respondentlərin 48 faizi konsert məkanlarında və gecə klublarında təhlükəli səs-küyə məruz qaldıqlarını bildirib. Bununla da alimlərin araşdırmasına görə 1,3 milyard gənc risk altındadır. Qulaqlıqlarla dinlənilən musiqi səsinin 105 desibelə çata biləcəyini bildirən mütəxəssislər, konsert məkanlarında orta səs səviyyəsinin 104- 112 desibel arasında dəyişdiyini müəyyən ediblər. Araşdırmaya rəhbərlik edən Lauren Dillard eşitmə itkisinin qarşısını almağın ən yaxşı yolunun dinləmə müddətini və səsi azaltmaq olduğunu qeyd edib. Dillard gənclərin smartfon və qulaqcıqlarda olan parametrləri diqqətlə izləməli olduqlarını vurğulayıb.

ÜST araşdırma aparmamış olsaydı belə, qulaqcıqdan gələn səsi, həm də güclü bir şəkildə ətrafdakılar da eşidirsə, istənilən halda "bunların qulağı batmır səsdən?!" deyə düşünənlərin sayı, təbii ki, çoxdur. Üstəlik, bu hal avtobusda, metro vaqonunda yaşanırsa, sərnişinlərin narahatlığına səbəb olur. Sərnişinlərin "o musiqinin səsini azaldın bir az, mane olur" şikayətini dəfələrlə eşitmişik. Dərd burasındadır ki, qulaqcıq taxıb dinlədiyi musiqini, seyr etdiyi filmi və ya videonu məcburən başqasına da eşitdirənlər də çoxdur. Ümumiyyətlə, son zamanlar insanlar səs-küyə meyillənib. Musiqini yüksək səslə dinləmək, avtomobil hərəkətdə ikən musiqini gur səslə dinləndirmək kimi etik çərçivəyə sığmayan ənənə formalaşıb.



***Həkim: "Zaman keçdikcə problemlər ortaya çıxır və bunu bildiyiniz vaxt isə hər şey çox gec ola bilər. Uğultu və cingilti xəstəliyin ilkin əlamətlərindəndir"***

*(Davamı səh: 7-də)*

**Məlahət Rzayeva**

## Şotlandiya dünyanın ən yaxşı qolf yeri seçilib

Qolf turizmi ölkəyə ildə 339 milyon dollar gəlir gətirib





**Təxminən 600 il əvvəl Şotlandiyada ənənəvi idman növünə çevrilən qolf bu gün ən populyar idman növlərindən biridir.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Əbu-Dabidə keçirilən "World Golf" Mükafatlarında qolf oynamaq üçün ən yaxşı yerlər seçilib. Qolfun vətəni olan Şotlandiya "dünyanın ən yaxşı qolf yeri" elan edilib.

Dünyanın Ən Yaxşı Qolf Sahəsi kateqoriyasında 5 mükafat qazanan Şotlandiya ilk dəfə qolf üçün ən yaxşı yer olub. Bu titul daha əvvəl Portuqaliyaya məxsus idi.

Şotlandiyada qolf sənayesinin təqribən 1,3 milyard dollar dəyərində olduğu və qolf turizminin ölkəyə ildə 339 milyon dollar gəlir gətirdiyi açıqlanıb.

**Turan**

## Soyuqdan saçlar tökülə bilər

Aşağı dərəcə hava allergik simptomları tətikləyir



**Soyuq havalar sağlamlıqda ciddi pozulmalar yarada bilər, eyni zamanda bədənin soyuğa həssaslığını artırır. Bu baş dərisində də özünü göstərir.**

"Medicina" xəbər verir ki, həkim Sergey Xomyakov bədənin soyuğa reaksiya formalarından danışıb.

"Aşağı dərəcə hava allergik simptomları tətikləyir.

Soyuq allergiyası, soyuq övrəsi bədəndə qırmızı səpkilər, ləkələrlə özünü göstərir.

Bədənin səthinin ümumi soyumasına cavab olaraq nevrozluq, zəiflik arta bilər.

Eləcə də soyuqdan rinit- burun allergiyası, gözdə konyuktivit yarana bilər.

Ən ağır forması daxili orqanların, xüsusən ağciyərlərin ödemi, astma tutmalarıdır.

Soyuq baş dərisinə də təsir edir.

Bu zaman saçlar zəifləyir, tökülür, qırılır.

Miqren, baş ağrı tutmaları olur. Kürəkdə, onurğada ağrılar artır.

Ona görə qışda bədəni adekvat istilikdə saxlayıb, yaxşı qidalanmaq və isti içkilər içmək lazımdır.

Orqanizm bu aylar çox enerji sərf edir.

Rasionda yağlı, karbohidratlı qidalar olmalıdır".